

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET    № 103 (7358) / Çərşənbə axşamı, 11 iyun 2019-cu il


# Paytaxtımız sürətlə inkişaf edir və müasir infrastruktur yaradılır



Prezident İlham Əliyev Beynəlxalq Memarlar İttifaqının nümayəndə heyətini qəbul edib

Bax: səh. 2



Bax: səh. 3

## Qurtuluşa gedən yol və Heydər Əliyevin xilaskarlıq missiyası

## UEFA: Bakı özünü beynəlxalq səviyyəli idman yarışlarının mərkəzi kimi təsdiq etməyi bacarıb



Bax: səh. 5

*Ukrayna Tarix İnstitutunun direktoru:*

**Heydər Əliyev Azərbaycan xalqı üçün böyük işlər görüb**



Bax: səh. 5

*Deputat:*

**Bu tarixi hadisədən sonra yeni siyasi tariximizin fundamental təməlləri yaradıldı**



Bax: səh. 8

*Deputat:*

**15 İyun tariximizə qızıl hərflərlə yazılıb**



Bax: səh. 11


6 Xalqımızın milli qürur səhifəsi

6 Ermənistan cəbhədəki təxribatlarının cavabını artıqlaması ilə alacaq

9 Azərbaycan gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir

## Prezident İlham Əliyev Kasım-Jomart Tokayevi seçkilərdə qələbə qazanması münasibətilə təbrik edib

Prezident İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təbrik məktubu ünvanlayıb.

Təbrikdə deyilir: *"Hörmətli Kasım-Jomart Kemeleviç,*

*Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.*

*Azərbaycan-Qazaxıstan münasibətləri xalqlarımızın ortaq tarixi, milli-mənəvi köklərindən qaynaqlanır. İnanıram ki, belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimizin və strateji tərəfdaşlığımızın bundan sonra da inkişaf etdiriləsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.*

*Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram".*

## Bakı və qəsəbələrində məktəblərin tikintisi və təmirinə 40 milyon manat ayrılıb

Prezident İlham Əliyev Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Son illərdə təhsil müəssisələrinin inkişafı sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində respublikanın şəhər və rayonlarında təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası üçün mühüm işlər görülmüşdür.

Sərəncamda qeyd edilir ki, Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.17.1-ci yarımbəndində göstərilmiş 40 milyon manat vəsait Bakı Şəhər İcra Hakimiyyətinə ayrılsın.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Maliyyə Nazirliyi bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

## Təhsil infrastrukturunun inkişafına 18 milyon manat ayrılıb

Prezident İlham Əliyev Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

Son illərdə ölkədə təhsilin inkişafı sahəsində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Respublikanın şəhər və rayonlarında 3200-dən çox məktəbdə tikinti, əsaslı təmir-bərpa və yenidənqurma işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi xeyli dərəcədə genişlənmişdir.

Sərəncamda qeyd edilir ki, respublika ərazisində modul tipli məktəblərin quraşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.16.2-ci yarımbəndində göstərilmiş 18 milyon manat vəsait Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

## Məcburi köçkünlər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında Fərmanda dəyişiklik edilib

Prezident İlham Əliyev "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

Fərmanda qeyd edilir ki, "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 yanvar tarixli 1206 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 53, № 2, maddə 187; 2018, № 4, maddə 671) aşağıdakı dəyişikliklər edilsin:

- 1-ci hissədə "40,0 (qırx)" sözləri "60,0 (altmış)" sözləri ilə əvəz edilsin;
- 1-3-cü hissədə "22,0 (iyirmi iki)" sözləri "33,0 (otuz üç)" sözləri ilə əvəz edilsin.

## "Azərbaycan Sənaye Korporasiyası"nın Müşahidə Şurasının üzvləri təyin edilib

Prezident İlham Əliyev "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Aşağıdakı şəxslər "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının üzvləri təyin edilsinlər:

İnam Kərimov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi.

# Paytaxtımız sürətlə inkişaf edir və müasir infrastruktur yaradılır

### Prezident İlham Əliyev Beynəlxalq Memarlar İttifaqının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyerın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edərək, bu tədbirin beynəlxalq əməkdaşlıq baxımından önəmini vurğuladı. Bakının qədim tarixi ənənələrə malik olduğunu vurğulayan Prezident İlham Əliyev bununla bərabər paytaxtımızın sürətlə inkişaf etdiyini və müasir infrastrukturun yaradıldığını qeyd etdi. Dövlətimizin başçısı hazırda ölkəmizin xarici turistlər üçün cəlbedici məkana çevrildiyini qeyd edərək qonaqların sayının durmadan artdığını bildirdi.

Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonyer Bakıya gələn hər bir qonaqda buradakı inkişaf proseslərinin, tarixi və müasir tikililərin dərin təəssürat hissi doğurduğunu qeyd etdi. O, Bakının beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin və infrastruktura qoyulan investisiyaların paytaxtımızın inkişafına böyük töhfə verdiyini vurğuladı. Tomas Vonyer nümayəndə heyəti adından "Tarixi şəhərlərdə kütləvi turizm" Beynəlxalq Memarlıq Forumunun keçirilməsi ilə bağlı göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə, o cümlədən Azərbaycan Memarlar İttifaqına minnətdarlığını bildirdi. Qonaq Bakının inkişafı ilə bağlı əldə edilmiş nailiyyətlərlə əlaqədar təbriklərini dövlətimizin başçısına çatdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda həyata keçirilən inkişaf prosesləri ilə yanaşı, tarixi irsin qorunması işinə də böyük diqqət verildiyini qeyd etdi. Eyni zamanda, dövlətimizin başçısı Azərbaycanda əhalinin sayının artması ilə əlaqədar müvafiq infrastruktur layihələrinin də həyata keçirilməsinə böyük önəm verildiyini bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

# "SOCAR Karbamid" zavodu ilk ixracını həyata keçirib

*Məhsulun ilk alıcısı olan "Integral Petroleum" şirkəti:*

### Azərbaycan karbamidi yüksək keyfiyyətə malikdir

**Sumqayıtda yerləşən "SOCAR Karbamid" zavodu ilk ixracına başlayıb. Zavodun məhsulu - karbamid gəmilərə yüklənmək üçün Hövsan beynəlxalq limanına göndərilib.**



AZƏRTAC xəbər verir ki, artıq ilk Azərbaycan karbamidini daşıyan "Phobus" və "Coral" gəmiləri limandan yola çıxıb. SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi və "Caspian EPC" şirkəti karbamidin logistika zənciri prosesini əvvəldən axıradək tənzimləyir və nəzarət edir.

"SOCAR Karbamid"in məhsulunun ilk alıcısı "Integral Petroleum" şirkətidir. Treydinq və logistika şirkəti olan "Integral Petroleum" 2008-ci ildə İsveçrənin Cenevrə şəhərində yaradılıb və hazırda Qafqaz-Xəzər regionu, Mərkəzi Asiya və Mərkəzi Amerika ölkələrinin bazarlarında iş görür.

"Integral Petroleum" şirkəti öz məktubunda bütün layihə iştirakçılarına minnətdarlığını bildirib və Azərbaycan karbamidinin yüksək keyfiyyətdə olduğunu qeyd edib.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin ərazisində inşa edilən "SOCAR Karbamid" zavodu bu il yanvarın 16-da istifadəyə verilib. Zavod ildə 650-660 min ton karbamid istehsal etmək gücündədir. İstehsal həcminin təqribən 70 faizi ixrac üçün nəzərdə tutulub ki, bu da ölkəyə illik 160 milyon dollara qədər həcmdə əlavə gəlirin daxil olmasına imkan verəcək.

"SOCAR Karbamid" zavodu hazırda ölkənin qeyri-neft sektorunda reallaşdırılan ən iri layihədir. Onun ümumi dəyəri təqribən 800 milyon avro təşkil edir.

# Qurtuluşa gedən yol və Heydər Əliyevin xilaskarlıq missiyası

**Tarixi faktlar sübut edir ki, hər bir qəhrəman, dövlət xadimi öz xalqının təcəssümü, gedənlərlə yeni gələnlər arasında sınaq xəttidir. Siyasi fəaliyyəti dövründə iki dəfə-"Azərbaycan iri addımlarla irəliləyir" şüarının zərb- məsələyə çevrildiyi 1969- 1982-ci illərdə və 1993-2003-cü dövrü əhatə edən müddətdə Azərbaycan xalqına əsl lider kimi bələdçilik etmiş ulu öndər Heydər Əliyev birinci müddətdə sovet Azərbaycanına, ikinci müddətdə isə canından artıq sevdiyi müstəqil respublikamıza başçılıq etmişdir.**



Dünya təcrübəsi göstərir ki, güclü lideri olan millətlər və dövlətlər yüksək inkişaf yolu keçir və tarixi uğurlar əldə edirlər. Cəmiyyətə və dünyanın düşüncə tərzinə güclü təsir imkanlarına malik ümummilli lider Heydər Əliyev isə müdrikləre , uzaqgörən siyasətçilərə məxsus keyfiyyətləri özündə birləşdirən dahi idi. Azərbaycana rəhbərliyinin ilk mərhələsində ölkə iqtisadiyyatını, neft sənayesini və aqrar sahəni inkişaf etdirərək, liderliyə xas olan səbr, dözüm və qətiyyət kimi keyfiyyətləri özündə birləşdirərək bütün çətinliklərə qalib gəldi. Tanınmış siyasətçi Uinston Çörçilin söylədiyi sözlər sanki ulu öndər Heydər Əliyev şəxsiyyətinin formulu, məntiqi ifadəsi idi: " Heç vaxt təslim olma...Heç nədə, kiçik və ya böyük, əhəmiyyətli və ya əhəmiyyətsizheç vaxt təslim olmayın. Vicdanın hökmündən və yaxşı zövqdən başqa."

Ulu öndər Heydər Əliyev liderlik kapitalını şərtləndirən formulu görmək ustadlığını, müdrikliyi, cəsarəti, inam qazanmaq qabiliyyətini, səmərəli ünsiyyət yaratmaq bacarığını və dəyərlər sistemini şəxsiyyətində birləşdirərək ən ağır zamanlarda belə canından artıq sevdiyi Azərbaycanı bütün bəlalardan, bölünmək təhlükəsindən xilas etməyi bacardı. Mahir idarəetmə bacarığını tamamlayan onun xalqına, Vətəninə, torpağının hər qarışına, milli adət- ənənələrimizə və mənəvi dəyərlərimizə bağlılığı idi.

Kremlin məkrli oyunlarından sonra Vətəni Azərbaycana dönən ulu öndər Heydər Əliyevə ümumxalq məhəbbətini , hörmətini özlərinin süqutu hesab edənlər, onun Bakı küçələrində görünməsindən belə xoflananlar bu müdrik insanın paytaxtdan uzaqlaşdırılması üçün hər cür rəzilliyə əl atdılar. Böyüyüb boya-başa çatdığı Naxçıvanda yaşadığı dövrdə belə Ulu Öndərə qarşı təxribatlarından əl çəkməyən səbatsızlar Ermənistan tərəfindən blokadaya alınan naxçıvanlıların ərzaq və yanacaqla təminatına da əngəl törədirdilər. Blokadanın vurduğu ziyan çox olsa da, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin nüfuzu sayəsində qonşu İran və Türkiyədən ayrılan yardımlar hesabına muxtar respublikanın üzləşdiyi çətinliklər aradan qaldırıldı. "Ümid körpüsü" salındı. Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, himni, gerbi bərpa olundu, həmyerlilərimizin birliyinə hesablanmış 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi. Naxçıvan şəhərində bir neçə müddətdən bəri fəaliyyətsiz qalmış təyyarə limanının "donu" açıldı. İnsanları bir məqsəd, amal naminə ətrafına toplayan Yeni Azərbaycan Partiyası təsis olundu.

AXC-Müsavat iqtidarı dövründə səriştəsiz rəhbərlərlə danışıqlara əhəmiyyət verməyən xarici qonaqların, jurnalistlərin Azərbaycanda baş verən hadisələrin əsl mahiyyətini öyrənmək üçün Naxçıvana üz tutmaları, o zaman muxtar respublika Ali Məclisinin sədri Heydər Əliyevə müraciət etmələri, insanların Ulu Öndərə böyük ümid bəsləmələri Prezident Elçibəy başda olmaqla Əli Kərimli , İsa Qəmbər komandasında təmsil olunan səriştəsiz rəhbərləri qısqandırırdı. Belə güclü, qətiyyətli , zəngin dövlətçilik təcrübəsinə malik bir siyasi xadimlə müqayisədə gücsüzlükləri etiraf etməyə cəsarətləri çatmasa da, dolayı yollarla Ulu Öndərin getdikcə artan nüfuzundan qorxan iqtidarsız iqtidarlar hər addımda dövləti idarəetmə işində səriştəsizliklərini ortaya qoydular. Naxçıvanda siyasi sabitliyi pozmağa çalışır, təxribatlar törədirdilər. 1992-ci ildə insanların ümid yeri olan Heydər Əliyevi devirmək üçün qiyam təşkil edən xalq cəbhəsinin silahlı adamlari zorla muxtar respublikanın Daxili İşlər Nazirliyinin, Radio və Televiziya Verilişləri Komitəsinin binasını zəbt edərək Ali Məclisin binasına doğru hərəkət etdilər. Məqsəd isə müdrik siyasətçi Heydər Əliyevin həyatına sui-qəsd təşkil etmək idi. Lakin AXC-Müsavat cütlüyünün hakimiyyətdə təmsil olunan səriştəsizləri unudurdular ki, onlardan fərqli olaraq ulu öndər Heydər Əliyevin arxasında xilaskarlarını hər cür təhlükələrdən qoruması bacaran xalq dayanırdı. Belə ki, Bakıdan Naxçıvana göndərilən, çevrilişə cəhd edən silahlıların köməyinə gələn xüsusi təyinatlıları gətirən təyyarələr də xalqın iradəsinə güc gələ bilmədi. Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalının gücləndiyi bir zamanda -1993-cü ilin yazında bir neçə kəndi birləşdirməklə qondarma "Ləzgistan" yaratmaq barədəki təxribatlar, Lənkəranda qarajda adi bir işdə çalışan, AXC-Müsavat iqtidarının yetirdiyi "polkovnik" Əlikram Hümbətovun "Talış-Muğan Respublikası" təşkil etmək iddiası Azərbaycanın suverenliyi üçün real təhlükə idi.

Azərbaycanda müstəqilliyin təhlükədə olduğu məqamlar çox olsa da, 4 iyun Gəncə hadisələri daha mürəkkəb xarakteri ilə seçilir. Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoyan Gəncə hadisələri, şəhərdəki 709 və 130 saylı hərbi hissələrdə başlanan qiyam isə vəziyyəti daha da ağırlaşdırmaqla, müstəqilliyimizin növbəti dəfə itirilməsi təhlükəsini yaratdı . Gəncədə ipək fabrikində adi mühəndis işləyən daha bir "polkovnik", hətta Milli Qəhrəman adını almış Surət Hüseynovun qiyamçıları mövcud AXC-Müsavat iqtidarını devirmək üçün Bakıya üz tutdular.

O günlərdə Heydər Əliyevin sədrlik etdiyi Naxçıvan MR Ali Məclisi ilə muxtar respublika Nazirlər Kabinetinin birgə iclasında hadisələr geniş təhlil olundu. Qarşıdurmalardan ən çox narahat olan, Azərbaycanı canından artıq sevən Heydər Əliyev aydın başa düşürdü ki, paytaxtda yaranan xaosun davamı kimi Gəncədə baş verənlər Azərbaycanın hərtərəfli məhvinə yönəldilmiş cinayət, AXC-Müsavat iqtidarının yanlış əməllərinin, səriştəsizliklərinin nəticəsi idi. Muxtar respublika ictimaiyyətinin narahatlığı həmin iclasda qəbul olunan və ulu öndər Heydər Əliyevin siyasi əhəmiyyətli sənəd hesab etdiyi bəyanatda da əksini tapırdı: " İyun ayının 4-də Gəncə şəhərində başlanmış və bu günə qədər davam edən hadisələr bizdə ciddi narahatlıq doğurur. Şəhərdə qan tökülüb, normal həyat pozulub, faktiki olaraq vətəndaş müharibəsi başlanıb. Müstəqil Azərbaycan Respublikasının indiki ağır və keşməkeşli, tarixən məsuliyyətli bir dövründə baş verənləri dəhşətli hadisə kimi qiymətləndirir, qardaş qanı tökülməsini pisləyirik... Bunların qarşısı dərhal alınmalıdır Hamını bu yolda milli birliyə, vətəndaş həmrəyliyinə dəvət edirik."

Hakimiyyət hərislərinin kreslo uğrunda mübarizəsi xalqa ağır məşəqqətlər yaşatdı. O dövrdə "mənəm-mənəm" deyənlərin özbaşınalığı, AXC-Müsavat hakimiyyətinin düzgün parametrlərə əsaslanan dövlət idarəçiliyi sisteminin olmaması, 1993-cü ilin əvvəllərindən ölkədə fəaliyyət göstərən silahlı dəstələrin yol verdikləri başıpozuq fəaliyyət, Azərbaycanın daxilində qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması, ayrı-ayrı bölgələrdə isə separatçılıq və parçalanma meyillərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına təhlükə yaratmışdı. İqtisadiyyatın bütün sahələrini böhran bürümüşdü.

O dövrdə hakimiyyətdə təmsil olunanlara diqqət yetirək. Parlamentin sədri 11 il ərzində kiçik bir dissertasiyanı müdafiə edə bilməyən kiçik elmi işçi idi. Əvvəllər kiçik mövsümi ticarətlə məşğul olan "baş nazir" postu bazar təfəkkürlü şəxs üçün olduqca ağır idi. Dövlət əmlakının açıq-aşkar mənimsənilməsi, qeyri-qanuni yolla xaricə satılması, bir sözlə, dövlət əmlakının talan edilməsi adı hala çevrilmişdi. Ölkədə özəlləşdirilmə prosesi getmədiyi halda 3 mindən çox xidməti maşını məmurlar şəxsi istifadə üçün mənimsəmişdilər. Ehtiyat mənzil fondu AXC-Müsavat hakimiyyətinin ilk aylarında satılıb mənimsənilmiş, bir çox hallarda "bəylər" tərəfindən məşuqələrinə "ərməğan" edilmişdi. Adi fizika müəllimi, Şuşanın itirilməsində bilavasitə əli olan, ordunu iflic vəziyyətinə salan "müdafiə naziri" müstəqil tərəf kimi səbatsız parlament sədrinə və prezidentə meydan oxuyurdu. "Daxili işlər naziri" qoçuluq edərək canlı efirdə belə müxalifət nümayəndəsini döysə də, buna görə heç bir məsuliyyət daşımamışdır. Üstəlik Gəncədə iğtişaşlar başlayan günə Bakıda AXC-Müsavat hakimiyyətinə qarşı mitinqlər təyin etmişdi.

Heç bir hüquqi əsası olmadan yaradılmış "ekologiya polisi", "bələdiyyə polisi" kimi qeyri-qanuni qurumlar faktiki olaraq daxili işlər nazirinin varlanması naminə dövlət səviyyəsində reketliklə məşğul idilər. Ən təhlükəli isə cinayətkarların, kriminal düşüncəli adamların dövlət vəzifələrinə təyinatı idi. Ölkədə mənəviyyatsızlıq hökm sürürdü. Daxili işlər naziri insanları qanunsuz həbs edir, məhkəməsiz 700 nəfər məhbusu azadlığa buraxıb, silahlandırmışdı. Fizika İnstitutunun diplomatik təcrübəsi olmayan kiçik elmi işçisi xarici işlər naziri idi. Vəzifəyə təyinat üçün kriteriya cəbhəçi və ya müsavatçı olmaq idi. Hakimiyyət daxilində yaranan Müsavat, "Yurd", "Boz qurd", "boz pencəklilər" arasında birincilik uğrunda mübarizə gedirdi;

İqtidarda təmsil olunan Əli Kərimlinin nəzarətindəki media qurumları baş nazir və spikeri ələ salır, prezidentin özünə yaxın AXC İcraiyyə Komitəsi rəsmi bəyanatla nazirləri, parlament sədrini dövlətə və ya hakimiyyətə xəyanətdə ittiham edirdi. Belə daxili didişmələr, başıpozuqluq, xalq tərəfindən inamsızlıq nəticəsində cəmi 1 il hakimiyyətdə qalan qara qüvvələrin iqtidarlığı Azərbaycanın yeni tarixinin ən faciəli dövrü idi. Ən acınacaqlısı isə Prezident, Ali Baş Komandan olduğunu unudan birinci şəxs ölkədə real vəziyyətdən, cəbhədəki durumdan xəbərsiz idi.

Sonradan özlərinin də etiraf etdikləri kimi, prezident seçkilərində Ə. Elçibəyə etimad göstəricisi 33 faizi ötməmişdi. Yəni "xalqın etimadı ilə hakimiyyətə gəldiklərini" bildirən AXC-Müsavat cütlüyünün hakimiyyəti ölkədə anarxiya, xaos, özbaşınalığın tüğyan etməsi, iqtisadiyyatın çökməsi, əhalinin sosial durumunun son dərəcə ağırlaşması, torpaqların işğalı ilə nəticələndi. Xalq xilas yolunu axtardı. Bu yolun bələdçisi isə ulu öndər Heydər Əliyev idi.

Xalqın haqlı tələbinə diqqətlə yanaşan ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya qayıtdı. Vətəndaş qarşıdurmasının dayandırılması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsinin xilası bu tarixdən başlandı. Gəncə hadisələrini öyrənmək üçün iyunun 13-14-də ziyalılardan, ağsaqqallardan ibarət qrupla Gəncəyə gedən Ulu Öndər Surət Hüseynovla, sadə vətəndaşlarla, hərbçilərlə görüşərək, siyasi böhranın, qarşıdurmanın aradan qaldırılması üçün söhbətlər apardı, çıxış yolları barədə faydalı, müdrik tövsiyələrini bildirdi. Zərərçəkən, əzizlərini itirən gəncəlilərə mənəvi dəstək oldu.

Görüşün nəticələri barədə iyunun 15-də keçirilən Ali Sovetin fövqəladə sessiyasında açıqlama verən ulu öndər Heydər Əliyev bildirdi ki, göstərilən səylər, aparılan danışıqlar bu gərginliyi aradan qaldıracaq: " Ancaq mən demişəm və bir də deyirəm ki, mən heç vəchlə silah işlədilməsinin tərəfdarı ola bilmərəm. Bu gərginlik, qarşıdurma yalnız sülh yolu ilə, barışıq yolu ilə , qarşılıqlı anlaşma yolu ilə, danışıqlar yolu ilə həll olunmalıdır."

Bu sessiya Gəncə hadisələrinin geniş miqyas almasına mane olmaqla başqa bir məqamla da Azərbaycanın tarixinə əlamətdar hadisə kimi yazıldı. Həmin gün deputatların yekdil səsverməsi ilə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu, seçim ilə Azərbaycanın xilas yolunun, müstəqilliyimizin əbədiliyinin təməli qoyuldu. Həmin gün Azərbaycanın dövlətçilik tarixinə Milli Qurtuluş Günü, əbədiyyət rəmzi kimi yazıldı.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## Prezident İlham Əliyev:

# Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir

Hər bir mühüm hadisə keçilən yolun, həmçinin atılan addımların əhəmiyyətinin geniş təhlilini bir zərurət kimi ortaya qoyur. Məlum olduğu kimi, dövlətimizin başçısı İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi təsis edilib. Bu əlamətdar günü nəzərə alaraq, əldə edilən nailiyyətləri, habelə qarşıda duran vəzifələri və onların icrası ilə bağlı tədbirləri müəyyənləşdirmək məqsədilə hər il olduğu kimi, bu il də İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) mayın 18-dən iyunun 18-dək ölkəmizdə "İnsan Hüquqları Aylığı"nın keçirilməsini elan edib. Ay ərzində keçirilən tədbirlər insan hüquqlarının qorunması sahəsində atılan addımların təhlilinə geniş imkanlar açır.

Son 15 ildən artıq dövr ərzində hüquqi cəmiyyətin möhkəmləndirilməsi istiqamətində atılan addımların davamlılığı göz önündədir. "Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq" söyləyən Prezident İlham Əliyev, eyni zamanda, bu fikri daim önə çəkir ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü olan ölkədə demokratiya, şəffaflıq yoxdursa, insan hüquqları yüksək səviyyədə qorunmursa, uğurdan danışmaq qeyri-mümkündür.

İnsan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edildi. Sənəddə də bu vacib məqam öz əksini tapdı ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib. Milli Fəaliyyət Planının təsdiqindən ötən dövr ərzində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildi, dövlətimizin siyasətində insan amilinə verilən dəyər təqdir olundu. Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli "Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi haqqında" Sərəncamı bu sahəyə diqqəti bir daha təsdiqlədi. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də Azərbaycanda ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyini və insan hüquqlarının təmin olunmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyini nəzərə alaraq 18 iyunun İnsan Hüquqları Günü kimi qeyd edilməsi görülən işlərin hesabatı, qarşıdakı vəzifələrin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Demokratik prinsipləri bu günün və gələcəyinin əsası kimi qəbul edən dövlətimizin dünyanın nüfuzlu təşkilatlarına, xüsusilə demokratik prinsiplərin inkişafı ilə məşğul olan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması, 18 ildən artıq dövr ərzində münasibətlərin yüksələn xətt üzrə inkişafı Azərbaycanın sivil dəyərlərə sadiqliyindən qaynaqlanır. AŞPA-nın "Azərbaycanda demokratik təsisatların inkişafına dair" qəbul etdiyi qətnamədə ölkəmizin demokratiya təcrübəsi yüksək dəyərləndirilir, digər dövlətlərə nümunə göstərilir.



Bir reallıq da hər kəsə aydındır ki, dünyanın ikili siyasətinin mövcudluğu fonunda Azərbaycanın demokratik inkişafına kölgə salan "Freedom House", "Amnesty International" kimi təşkilatlar vardır. Onların hesabatlarında işğalçı Ermənistanın "azad", Azərbaycanın isə "qeyri-azad" ölkələr sırasında qeyd olunması qərəzin, ikili mövqeyin göstəricisidir. Dövlətimizin başçısı İlham Əliyevin "2001-ci ildən başlayaraq bu günə qədər Azərbaycana qarşı bəzi hallarda aparılan ədalətsiz mübarizə bizdə çox böyük hiddət doğurur. Çünki hər şey ədalətli olmalıdır. Ədalət ən böyük meyardır... Azərbaycanın yerləşdiyi bölgədə, qonşuluqda yerləşən ölkələrdə problemlər bizim problemlərdən az deyil. Bəzi hallarda o məsələlərə göz yumulur, yaxud da ki, yanlış məlumat təqdim olunur. Azərbaycanda isə xırda məsələ ilə bağlı böyük hay-küy salınır. Sanki kimsə istəyir ki, Azərbaycanın reputasiyasına zərbə vursun... Bu bizə qarşı aparılan məqsədyönlü və ədalətsiz mübarizədir. Biz bu mübarizəyə hazırıq və bu mübarizəyə qarşı ancaq öz siyasətimizi, sözün yaxşı mənasında, inadkarlığımızı qoymalıyıq və qoyuruq ki, Azərbaycanın maraqlarını müdafiə edək" fikirləri ölkəmizə qarşı qərəzli mövqedə dayanan, ağlaqaralar, hətta ölkənin tutan qüvvələrə tutarlı cavabdır.

Ölkə Prezidenti daim bu fikri də bildirir ki, bu və ya digər beynəlxalq təşkilatlara qəbul olunmaqda məqsəd Azərbaycanın dəyərlərini dünyanın qabaqcıl ölkələrinin meyarlarına uyğunlaşdırmaqdır. Atılan addımlar hansısa təşkilata, dövlətə xoş gəlmək deyil, ölkənin uğurlu gələcəyi üçündür.

Azərbaycan inkişaf, tərəqqi yolunda inamla irəliləyir. Bu yeniliklərin qəbul olunan qanunlarda, Konstitusiyamızda da öz əksini tapması zamanın tələbinə çevrilib. Konstitusiyamızın qəbulundan ötən 23 ildən artıq dövrdə sənədə 3 dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsvermənin keçirilməsi də insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasına, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsinə xidmət edir. "Dövlətin ali məqsədi" maddəsinə edilən əlavəyə əsasən dövlətin məqsədi insan hüquq və azadlıqlarının qorunması ilə yanaşı, onları yüksək həyat şəraiti ilə təmin etməkdir.

Göründüyü kimi, bütün hüquqlarımız dövlət tərəfindən qorunur. Vətəndaşların sərbəst toplaşmasını, seçki proseslərində sərbəst iştiraklarını təmin edən qanunvericilik bazası mövcuddur. Təbii ki, hüquqlarımızla yanaşı, vəzifələrimiz də vardır. Dövlətimizin başçısı bildirir: "Bu gün Azərbaycanda bütün azadlıqlar mövcuddur. Ancaq eyni zamanda, qanun-qayda da var. Azərbaycanda Konstitusiyada təsbit olunmuş bütün azadlıqlar, hüquqlar qorunur. Eyni zamanda, hər bir vətəndaş da məsuliyyətini hiss etməlidir. Heç kimə imkan verilməyəcək ki, qanunu pozsun. Heç kimə imkan verilməyəcək ki, hansısa müstəsna güzəştlərə malik olsun. Hamı necə, başqası da elə. Biz hüquqi dövlət qururuq. Qanunun aliliyi bizim üçün başlıca şərtdir və heç kimə, heç bir şəxsə, heç bir qüvvəyə imkan verilməyəcək ki, qayda-qanunu pozsun, qeyri-qanuni hərəkətlər etsin."

1995-ci ildən imzalanan əfv fərmanları və Amnistiya aktları da dövlətin insan hüquq və azadlıqlarının qorunmasına xüsusi diqqət göstərdiyini təsdiqləyir. Şəxsiyyət azadlığına humanist münasibətlərin formalaşdığı ölkəmizdə ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından 2003-cü ilə qədərki dövrə qədər 32 əfv Fərmanı imzalanıb, 7 Amnistiya aktı qəbul olunub. Son 15 ildən artıq dövrdə isə 30-dan çox əfv Fərmanı imzalanıb, 4 Amnistiya Aktı qəbul olunub. Bu sənədlər əsasında ümumilikdə on minlərlə məhbus azadlığa qovuşub. Dövlətimizin başçısı İlham Əliyevin son 16 mart 2019-cu il tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı isə ümumilikdə 431 nəfərə şamil olunmuşdur.

Prezident İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə daha geniş sferanı əhatə edən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təsdiq edilməsi də atılan addımların davamlılığının, dövrün tələbinə uyğun təkmilləşmənin həyata keçirilməsinin göstəricisidir. Milli Fəaliyyət Proqramının əsas məqsədi insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətindəki islahatların davamlılığını təmin etməkdir. Bütün bunlar belə bir reallığın təsdiqidir ki, Azərbaycan demokratik dəyərlərə sadiqliyini sözdə deyil, əməldə təsdiqləyir. Ən əsası insan amili dövlət siyasətinin əsasını təşkil edir. Cənab İlham Əliyevin 2003-cü ildə irəli sürdüyü "Neft kapitalını insan kapitalına çevirək" tezisi də bunun təsdiqidir. Neft gəlirlərindən əldə olunan vəsaitin təyinatı üzrə, ədalət prinsipi əsasında xərclənməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasına yol açır. Neft siyasətinin məntiqi davamı kimi dəyərləndirilən qeyri-neft sektorunun inkişafına yönələn addımlar da ölkə Prezidentinin qarşıya qoyduğu "Enerji sektorundan asılılığı minimuma endirməliyik" məqsədinin gerçəkləşməsinə xidmət edir. Cənab İlham Əliyev çıxışlarında bu məqamı xüsusi qeyd edir: "İnsan amili, insan kapitalı. Mən hələ bunu 2003-cü ildə demişəm, biz neft kapitalını insan kapitalına çevirməliyik. Bunu deyəndə təkcə elmə, texnologiyalara, təhsilə qoyulan vəsaitdən söhbət getmir. Söhbət ondan gedir ki, Azərbaycan vətəndaşına hər yerdə hörmət olmalıdır... Hər bir dövlət məmuru öz xalqına xidmət etməlidir. Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət!" Ölkə Prezidentinin "İqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında öz əksini tapmalıdır", "Xalq görülən işlərdən razı olarsa, onda mən də razı qalaram", "Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşamalıdır" kimi tezisləri vətəndaş amilinə verilən önəmin təsdiqidir. Ən əsası cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı gündən "Hər kəsin Prezidenti olacağam" vədini vermiş və son 15 ildən artıq dövrdə bunu əməli işində təsdiqləmişdir. Dünya Bankının hesabatlarında ən islahatçı ölkə kimi tanınan Azərbaycan adambaşına düşən Ümumi Milli Gəlir təsnifatına görə "yuxarı orta gəlirli ölkələr" kateqoriyasına daxil olmuş, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının İnsan İnkişafı ilə bağlı hesabatına əsasən isə "orta insan inkişafı ölkələri" qrupunu tərk edərək, "yüksələn insan inkişafı ölkələri" qrupunda yer almışdır. Bu reallığı ölkə Prezidenti İlham Əliyevin çıxışlarında da yer alır ki, neftlə zəngin çox ölkələr var. Lakin onlarda bu resurs heç də inkişafa, tərəqqiyə yol açmır. İnsanlar arasında təbəqələşmə prosesi sürətlə gedir. Lakin Azərbaycanda inkişaf strategiyasının dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən müəyyənləşdirilməsi, ən əsası ədalət prinsipinin, şəffaflığın yüksək səviyyədə qorunması bu kimi fərqlərin baş verməməsinə səbəb olmuşdur. Bu, dövlətin ali məqsədində insan amilinə verilən önəmin bariz nümunəsidir.

Konstitusiyamızda bu reallıq da öz əksini tapıb ki, hakimiyyətin yeganə mənbəyi xalqdır. Xalqın iradəsini özündə əks etdirən nəticələr demokratiyanın əsas göstəricilərindəndir. Dövlətimizin başçısı bildirir: "Siyasi mənsubiyyətindən, əqidəsindən asılı olmayaraq hər bir vətəndaşın hüquqları dövlət tərəfindən qorunur, bütün azadlıqları təmin edilir. Biz siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin etmişik. Təkcə onu demək kifayətdir ki, bu gün Azərbaycan vətəndaşlarının 80 faizi internet istifadəçiləridir və internet Azərbaycanda azaddır. Yəni, demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir."

Yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində də əsas amillərdən biri xalqın iradəsidir. Bu da xalq-iqtidar birliyinin təcəssümü, dövlətin siyasətində insan amilinə verilən dəyərin bariz göstəricisidir. Bəyan edilir ki, xalqın iradəsindən kənar heç bir qərar qəbul oluna bilməz. Hər bir Azərbaycan vətəndaşı işğal altında olan torpaqlarımızın sülh yolu ilə ədalətli həllində maraqlı olduğunu bildirməklə yanaşı, digər variantı da istisna etmirlər ki, torpaqlarımızı hərb yolu ilə azad etmək üçün Prezidentin hücum əmrini gözləyir. Bir qarış torpağımızın belə düşmənə verilməyəcəyini bəyan edən dövlətimizin başçısı İlham Əliyev ən yüksək tribunalardan "Xalqın səbri tükənməz deyil" bəyan etməklə yenə də xalqa güvəndiyini, arxalandığını təsdiqləyir.

Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, elə bir sahə yoxdur ki, orada ictimai maraqlar qorunmasın, ümumi rəyə əsaslanan mövqe ortaya qoyulmasın. Cəmiyyətin informasiya tələbatının ödənilməsi missiyasını yerinə yetirən mətbuatın inkişafına yönələn addımlar, həmçinin jurnalist əməyinə verilən dəyər də bu maraqların qorunmasının bir tərkib hissəsidir. Analoqu olmayan addım kimi dəyərləndirilən jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması məsələsinə diqqət yetirsək heç bir ayrı-seçkiliyə yol vermədən mənzillərin paylanması dövlətin ictimai maraqların, vətəndaş hüquqlarının qorunmasında nə qədər maraqlı olduğunu nümayiş etdirir. Dövlətimizin başçısı İlham Əliyevin əsas tövsiyəsi budur: "Hər bir vətəndaş birgəyaşayış qaydalarını əks etdirən qanunlara tabe olmalı, fəaliyyətini, əməllərini, iş prinsipini onun tələblərinə uyğun müəyyənləşdirməlidir." Yəni cəmiyyəti idarə edən qanunlardırsa, hər bir vətəndaş qanun qarşısında eyni məsuliyyəti daşıyır. Heç kəs müstəsna hüquqlara malik deyil. Vətəndaş məsuliyyətini artırmaqla, Konstitusiya ilə bizə verilən hüquqlardan istifadə etməklə, ölkəmizin inkişafına öz töhfəmizi verməliyik.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# UEFA: Bakı özünü beynəlxalq səviyyəli idman yarışlarının mərkəzi kimi təsdiq etməyi bacarıb


ABOUT UEFA MEDIA MEMBER ASSOCIATIONS DEVELOPMENT CAREERS DISCIPLINARY SOCIAL RESPONSIBILITY PROTECTING THE GAME MENU

HOME > MEMBER ASSOCIATIONS > News

Beautiful Baku

Saturday 8 June 2019

While a relative newcomer to the world of hosting international sporting events, Baku has quickly established itself as a popular host city with a lot to offer.

Baku is getting ready to serve as one of the 12 host cities for EURO 2020. The general secretary of the Association of Football Federations of Azerbaijan (AFFA), Elkhan Mammadov, describes the association's plans for the EURO, why Baku is a great destination for football fans, and the legacy that is being built.

"We built a strategy so that Baku would become a sporting hub in the future, and slowly we are getting there. Baku will become a sporting hub," he says, recognising the commitment shown by the association and local stakeholders, who are already driving to make the EURO a success in Baku.

So, what attracted the City of Winds – as Baku is known because of the sweeping gusts from the Caspian Sea – to becoming a EURO host? The city's pedigree in staging major events is growing, and shaping football in Azerbaijan for years to come is the AFFA's motivation.

Çox qısa bir müddətdə özünü beynəlxalq səviyyəli idman yarışlarının mərkəzi kimi təsdiq etməyi bacaran Bakı idman azarkeşlərinə və turistlərə unudulmaz və maraqlı anlar bəxş edən şəhərlər sırasına daxil ola bilib.

AZƏRTAC xəbər verir ki, bu fikir UEFA-nın rəsmi saytında yayımlanan "Gözəl Bakı" sərlövhəli məqalədə qeyd olunub.

Məqalədə Bakının 2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatının oyunlarına ev sahibliyi edəcək 12 şəhərdən biri olduğu bildirilib, paytaxtın bu oyunlara tam hazır olduğu vurğulanıb.

Həmçinin yazıda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) baş katibi Elxan Məmmədovun "Avro-2020"nin dörd final oyununun keçirilməsi üçün assosiasiyanın planları, azarkeşləri Bakıda nələrin gözlədiyi barədə fikirləri də yer alıb.

"Biz Bakının gələcəkdə idman mərkəzinə çevrilməsi üçün strategiya hazırlamışıq və tədricən də bu məqsədə doğru irəliləyirik. Bakı idman mərkəzinə çevriləcək. "Avro-2020"nin oyunları futbolun inkişafına, daha çox insanın futbola cəlb olunmasına gətirib çıxaracaq. Futbol daim inkişaf edən idman növüdür. Son bir neçə ildə onun populyarlığı nəzərəçarpacaq dərəcədə yüksəlib. Əlbəttə, digər idman növləri də var ki, onlara da maraq artır. Amma futbol idman növləri içərisində ən populyarıdır. Bizim üçün həm ölkədə, həm də bütövlükdə regionlarda futbola olan marağın səviyyəsini qoruyub saxlamaq vacibdir. Bizim nailiyyətimiz o olacaq ki, gələcəkdə daha çox uşaq vaxtını kompüter arxasında deyil, məhz futbol oynayaraq keçirsin. Bu da ölkədə sağlam həyat tərzinin inkişafına və daha sağlam insanların böyüməsinə səbəb olacaq", - deyə Elxan Məmmədov məqalədə qeyd edib.

AFFA-nın baş katibi bildirib ki, Bakı özündə qədimliyi və müasirliyin harmoniya təşkil etdiyi müasir şəhərdir. Son illərdə Bakının çox sürətlə inkişaf etdiyini və modernləşdiyini deyən Elxan Məmmədov şəhərin xarici turistlər üçün çox maraqlı və cəlbedici olmasından da danışıb. "Şəhərin tarixi-memarlıq abidələri ilə zəngin olan hissəsi ilə yanaşı, həm də müasir məkanları da bura gələn insanların diqqətini özünə cəlb edir. Burada müxtəlif bədii sərgilərin, müasir görməli yerlərin mövcudluğu şəhərin görünüşünə xüsusi rəng qatır", - deyə o vurğulayıb.

Bakının müxtəlif beynəlxalq səviyyəli idman tədbirlərinin keçirildiyi idman mərkəzinə çevrildiyini söyləyən E.Məmmədov deyib: "Beləliklə də, turistlərin Bakıda olduqları müddətdə şəhərin bu üç əsas xüsusiyyətinə (tarixi-memarlıq abidələri ilə zənginliyinə, müasir attraksionların və sərgilərin, eləcə də müasir idman mərkəzlərinin olmasına) valeh olacaqlar. Bütün bu sadalanan obyektlər bir-birinə çox yaxın yerləşdiyindən onlara hətta piyada da çatmaq olur ki, bu da onları daha əlçatan və cəlbedici edir. 2020-ci ildə biz bütövlükdə Avropa çempionatının Bakıda və qonşu ölkələrdə bütöv futbol tarixini yazacağıq. Çünki, biz bütün regionda futbol azarkeşlərinə "Avro-2020"nin həyəcanını və xoş anlarını yaşatmaq istəyirik. Şəhərdə azarkeşlər və turistlər üçün müxtəlif diqqətçəkən tədbirlər keçiriləcək. Biz fan-zonaların aktiv olma müddətinin uzadılmasını planlaşdırırıq və inanırıq ki, bu da insanların ora gəlib həzz almalarına, sonra isə gedib öz komandalarına azarkeşlik etmələrinə şərait yaradacaq".

Məqalənin sonunda AFFA-nın baş katibi futbol azarkeşlərini 30 gün davam edəcək möhtəşəm "Avro-2020" oyunlarından və oyunlar ərəfəsində keçiriləcək maraqlı əyləncəli tədbirlərdən zövq almağa çağırıb.

*Aydın Hüseynov:*

# Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi



Ümummilli lider Heydər Əliyev həyatının böyük hissəsini Azərbaycan xalqına həsr edib və bu gün bütün sahələrdə Ulu Öndərin əməyi özünü göstərir.

Bunu Trend-ə Milli Məclisin Yeni Azərbaycan Partiyasından olan deputatı Aydın Hüseynov deyib.

A.Hüseynov vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərin həddi-hüdudu yoxdur, lakin onun fəaliyyətinin zirvəsi məhz müstəqil Azərbaycan dövlətini qurmasıdır: "Müstəqilliyimizin ilk vaxtlarında hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz fəaliyyəti ölkəni xaos və anarxiyaya sürükləyirdi, ölkə parçalanmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Digər tərəfdən cəbhədəki uğursuzluqlar, iqtisadi və sosial böhran vəziyyəti daha da ağırlaşdırırdı".

Deputatın sözlərinə görə, belə bir çətin vəziyyətdə xalq yeganə çıxış yolunu ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü: "Ümummilli lider Heydər Əliyevin Heydər Əliyevin xilaskarlıq missiyası Azərbaycanı məhv olmaqdan, parçalanmaqdan xilas etdi. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmiz bəlalardan qurtuldu, həmin dövrdə Ulu Öndərin həyata keçirdiyi mühüm işlər nəticəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu və dünyada tanınmağa başladı. Əgər həmin çətin dövrdə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan xalqının başına hansı faciələrin gələcəyini heç kim bilmirdi. O vaxtı səriştəsiz hakimiyyətin fəaliyyəti nəticəsində Azərbaycanın müstəqilliyi təhdid altında idi, lakin Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində Azərbaycan bu bəlalardan qurtuldu və dövlət quruculuğu istiqamətində böyük işlər həyata keçirilməyə başlandı. 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan parlamentinin sədri vəzifəsinə seçilməsi müasir tariximizdə dönüş nöqtəsi idi".

A.Hüseynov qeyd edib ki, Heydər Əliyevin qayıdışından sonra siyasi sabitlik bərpa olunmaqla yanaşı, ölkə iqtisadiyyatı da inkişaf yoluna qədəm qoydu: "Ölkə iqtisadiyyatı tənəzzül etdiyi bir vaxtda Heydər Əliyev belə bir devizlə çıxış etdi: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Həmin dövrdə ulu öndər Azərbaycanın gələcək inkişaf perspektivlərini çox dəqiq şəkildə müəyyənləşdirdi. Heydər Əliyev ölkənin gələcəyinin, dövlətimizin inkişafının məhz iqtisadiyyatın inkişafından asılı olduğunu önə çəkirdi. Heydər Əliyev iqtisadiyyatı çox dərindən təhlil etməyi, proqnozlaşdırmağı və bütün potensialları işə salmağı bacarırdı".

Deputat əlavə edib ki, ümummilli lider Heydər Əliyevin siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Bu gün ölkəmiz dövlət başçısının yorulmaz və qətiyyətli fəaliyyəti nəticəsində dünyanın sayılıb-seçilən ən güclü və qüdrətli dövlətlərindən birinə çevrilib".

## XİN: Azərbaycan Cənubi Osetiyada keçirilmiş qondarma "seçkiləri" tanımır



Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Cənubi Osetiyada keçirilmiş qondarma "seçkilər"lə bağlı bəyanat yayıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir: "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edir və beynəlxalq hüququn kobud pozulması olan Cənubi Osetiyada keçirilmiş qondarma "seçkiləri" tanımır".

## Energetika naziri "Mərkəzi Azəri" platformasında olub



Energetika naziri Pərviz Şahbazov "Mərkəzi Azəri" platformasına baş çəkib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, SOCAR-ın yataqların işlənməsi üzrə vitse-prezidenti Yaşar Lətifov və digər nümayəndələrin iştirakı ilə platformanın ərazisinə baxış keçirib, platformanın fəaliyyəti ilə tanış olub.

Q.Counz "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun cari vəziyyəti, "Mərkəzi Azəri" platformasında aparılmış profilaktik təmir işləri, platformada qurulmuş müasir texniki, təhlükəsizlik sistemi və planlaşdırılan yeni tədbirlər barədə məlumat verib.

Səfər zamanı həmçinin "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsinin növbəti mərhələsi olan "Azəri-Mərkəzi-Şərqi" layihəsi çərçivəsində görüləcək işlər diqqətə çatdırılıb. Xatırladaq ki, "Mərkəzi Azəri" platforması "Azəri" yatağında quraşdırılmış 3 platformadan biri olmaqla, "Azəri-Çıraq-Günəşli" layihəsinin ilk mərhələsində istismara verilib.

*Ukrayna Tarix İnstitutunun direktoru:*

## Heydər Əliyev Azərbaycan xalqı üçün böyük işlər görüb



Heydər Əliyev müasir Azərbaycanın memarıdır. O, istər sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik etdiyi müddətdə, istərsə də SSRİ Nazirlər Kabinetində çalışdığı dövrdə xalqı, Vətəni üçün böyük işlər görüb.

Bu fikri AZƏRTAC-a açıqlamasında Ukrayna Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru Andrey Kudryaçenko söyləyib.

O deyib: "Qanlı 20 Yanvar hadisələrindən dərhal sonra Heydər Əliyev həyatını riskə ataraq SSRİ rəhbərliyinə qarşı kəskin bəyanatla çıxış etdi. O dövr üçün bu, olduqca təhlükəli idi. Bununla da Heydər Əliyev Azərbaycan xalqının parlaq gələcəyi uğrunda mübarizəyə qalxdı. Azərbaycanda separatizm baş qaldırdığı dövrdə Heydər Əliyev öz biliyindən, təcrübəsindən istifadə edərək, dövlətin işıqlı gələcəyi üçün yorulmadan çalışdı".

İnstitut direktoru bildirib ki, çox çətin geosiyasi vəziyyətdə "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. A.Kudryaçenko 2002-ci ildə ilk dəfə Azərbaycanda olmasını və Heydər Əliyevlə görüşünü yaxşı xatırladığını deyib. Heydər Əliyev Azərbaycan və Ukrayna arasındakı dostluq münasibətlərinin banisidir. O, öz fəaliyyəti ilə müdrik lider olduğunu sübut edib. Məhz onun həyata keçirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hər dəfə Azərbaycanda beynəlxalq konfranslarda iştirak edəndə, bu ölkənin inkişafını əyani şəkildə görürəm.

# Xalqımızın milli qürur səhifəsi

Müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmaqla ölkəmizin suverenliyini, müstəqilliyini xilas etdi. Həmin tarixdən cəmi 26 il keçməsinə baxmayaraq Milli Qurtuluş Günü, bu günün səbəbləri, nəticələri hər zaman maraqla müzakirə olunur. Çünki hazırda Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın varlığı məhz 1993-cü ilin 15 iyunundan başlayır. "İki sahil" qəzeti olaraq 15 İyun - Milli Qurtuluş Gününə bir daha işıq tutduq. **"Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev və siyasi ekspert Elşad Mirbəşiroğlu 15 İyunun Azərbaycan tarixindəki yerindən söhbət açdılar.**



"15 İyun - Milli Qurtuluş Günü ilk növbədə öz dövlətini, Vətənini sevən azərbaycanlıların şanlı tarixidir və bu tarix Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında çox nəhəng rola malikdir" deyən "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev bildirdi ki, hər bir xalqın, dövlətin öz milli tarixi günləri olduğu kimi, artıq 15 iyun tarixi də Azərbaycan xalqına və dövlətinə məxsus bir milli qürur səhifəsidir: "Artıq 1993-cü ildə xalqımız açıq-aşkar şəkildə yenicə qazanılmış müstəqilliyi növbəti dəfə itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı və bu baş versəydi, azadlıq uğrunda tökülən şəhid qanları, qurban verilən canlar hədər olacaqdı. AXC-Müsavat cütlüyünün naşılığı, kreslo davaları, şəxsi və maddi mənfəətlər uğrunda gedən daxili savaşlar, eyni zamanda, vətəndaş qarşıdurmasına şərait yaradırdı. Azərbaycanın dünya birliyində sıxışdırılması ilə yanaşı, Qarabağ cəbhəsindəki xəyanətlər, satqınçılıqlar üzündən yaranan məğlubiyyətlər o zamankı iqtidarın dövlət və xalq maraqları barədə əsla düşünməməsi faktını ortaya qoymuşdu. Bütün bunları xatırlayarkən, Azərbaycan dövlətinin nə qədər böyük və dəhşətli məhvə doğru getdiyini gözlərimiz önündə canlandıra bilərik. Belə bir çətin, acınacaqlı zamanda insanların günlərlə çörək növbələrində dayandıqları, hətta həmin növbələrdə həyatlarını itirdikləri vaxtlarda, hakimiyyətin xəyanətləri üzündən cəbhədə öldürülmüş əsgərlərin tabutlarının ailələrinə axın-axın gəldiyi, küçələrdə, bazar və dükanlarda silahlı reketçiliklərin tüğyan etdiyi dövrlərdə xalqın xilas olması üçün yeganə çıxış yolu öz qətiyyətli, xilaskar liderini müəyyənləşdirmək idi. Məhz həmin vaxtlarda Azərbaycan xalqı öz pənahını Ümummilli Liderdə tapdı, Ona müraciət etdi, Onun hakimiyyətə gəlməsini birmənalı olaraq istədi, tələb etdi. Belə bir ərəfədə xalqının ağır, böhranlı və çıxılmaz vəziyyətinə biganə qala bilməyən ulu öndər Heydər Əliyev Azərbaycanı əyilməz iradəsi, müdrikliyi ilə düşdüyü çətin vəziyyətdən çıxardı. O, hər zaman vurğulayırdı ki, yerdə qalan ömrünü Azərbaycan xalqına, Azərbaycan dövlətinə həsr edəcək. İqtisadiyyat, neft strategiyası, ordu quruculuğu və s. istiqamətlərdə nəhəng işlərə imza atıldı, Azərbaycan dünya dövlətləri sırasında mötəbər yerini tutmağa başladı. Bütün bunlar 15 İyun - Milli Qurtuluş Gününə xas olan, bu günü tariximizə həkk edən qürur mənbəyimizdir".

Siyasi ekspert onu da qeyd etdi ki, ümummilli lider Heydər Əliyev ideologiyası Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu gün əldə edilən hər bir mütərəqqi siyasət faktorunun təməlində 15 iyun gerçəkliyi dayanmaqdadır: "Əgər nəzərə alsaq ki, müasir müstəqil Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısıdır, ölkəmiz bir sıra mühüm beynəlxalq tribunalarda söz sahibidir və dünyanın ən aparıcı layihələrində təşəbbüskar olaraq çıxış edir, bu zaman ulu öndər Heydər Əliyev ideologiyasının, bu ideyaya xas prinsiplərin cənab İlham Əliyev tərəfindən həyata keçirildiyini vurğulaya bilərik. Bütün bunlar bilavasitə Milli Qurtuluş Gününün bariz və məntiqi nəticələridir. Bizlər həmin tarixin əbədi olması üçün daim dövlətimizin, dövlətçilik maraqlarımızın, bu maraqları həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməklə Azərbaycanımızın inkişaf və tərəqqisinə davamlı töhfələrimizi veririk, bundan sonra da bu uğurlu zəfər yolumuzu davam etdirəcəyik".



1993-cü il 15 iyun tarixinin Azərbaycanda Milli Qurtuluş Günü kimi müəyyənləşdiyini qeyd edən siyasi ekspert Elşad Mirbəşiroğlu isə bildirdi ki, bunu şərtləndirən ciddi amillər var idi: "Azərbaycan öz müstəqilliyinə qovuşduğu ilk illərdə daxili xaosla üzləşdi. Eyni zamanda, Ermənistan tərəfindən irəli sürülmüş əsassız ərazi iddiaları ilə qarşı-qarşıya qaldı. Belə ağır tarixi sınaq dövründə ölkə daxilində müxtəlif silahlı birləşmələrin hakimiyyət uğrunda qeyri-qanuni mübarizəsi təbii ki, ağır siyasi, sosial-iqtisadi vəziyyəti daha da ağırlaşdırırdı. Azərbaycanda müstəqilliyin ilk illərində formalaşmış siyasi hakimiyyət öz səriştəsizliyi ilə ölkəni xaosdan çıxara bilmirdi. Hələ bu azmış kimi, 1993-cü ilin iyunun əvvəllərində Gəncə qiyamı baş qaldırmağa başladı. Surət Hüseynovun rəhbərlik etdiyi bu qiyam sözün həqiqi mənasında Azərbaycanda real vətəndaş müharibəsinin əlamətlərini göstərirdi. Bununla da həm xaricdən gələn ciddi təhlükələr, həm də daxili və davamlı olaraq dərinləşməkdə olan xaos ölkənin müstəqilliyini sual altına qoyurdu".

Ekspert onu da diqqətə çatdırdı ki, həmin illərdə Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı: "Bu baxımdan həmin dövrdə hakimiyyətdə olan insanlar vəziyyətdən çıxmaq üçün özlərində potensial tapmadıqlarını hiss etdilər və ulu öndər Heydər Əliyevi Bakıya dəvət etdilər. Ümummilli lider Heydər Əliyev Surət Hüseynovla danışıqlar aparmaq üçün Gəncəyə getdi. Sonra Milli Məclisə Gəncədə baş verən vəziyyətlə bağlı arayış təqdim etdi. Artıq vəziyyətin ağırlığı qarşısında tab gətirməyərək istefa verən İsa Qəmbərin yerinə Milli Məclisin spikeri məhz Ulu Öndər seçildi. Bundan sonra Azərbaycanın daxili siyasi həyatında nəzərəçarpacaq sabitləşmə müşahidə olundu. Azərbaycan inkişaf yoluna qədəm qoymağa başladı. Bununla da Azərbaycanda inkişaf strategiyası da məhz həmin dövrdən formalaşmağa başlandı. Elə dövrün reallıqlarına uyğun olaraq, bu strategiyanın bazisini məhz daxili-siyasi sabitlik təşkil edirdi. Ümummilli lider Heydər Əliyev çox böyük uzaqgörənliklə müəyyənləşdirmişdir ki, daxili-siyasi sabitliyi təmin etmədən hər hansı istiqamətdə uğurdan danışmaq qeyri-mümkündür. Həmçinin daxili siyasi sabitlik üzərində ölkənin iqtisadi və hərbi qüdrətinin inkişaf etdirilməsi istiqamətində də addımlar atılmağa başlanıldı. Bu da qısa zaman kəsiyində öz bəhrəsini verdi. Azərbaycan daxili təhlükəsizlik mühitini formalaşdıra bildi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından təxminən bir il sonra 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Sözsüz ki, bu da Azərbaycan üçün çox böyük bir əhəmiyyət kəsb edən sənəd idi. Ölkəmizin iqtisadi sisteminin formalaşmasında, müstəqilliyinin dönməz xarakter almasında "Əsrin müqaviləsi"nin çox böyük təsiri olmuşdur".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Ermənistan cəbhədəki təxribatlarının cavabını artıqlaması ilə alacaq

**İki gün əvvəl Tərtər istiqamətindəki cəbhə xəttində düşmən tərəfindən Azərbaycanın daha bir əsgəri vurulub. 2000-ci ildə anadan olan çağırışçı əsgər, Gədəbəy rayonunun Köhnəqışlaq kənd sakini Elşən Vüqar oğlu Xəlilov Ermənistan silahlı qüvvələrinin atəşkəs razılaşmasını pozması nəticəsində şəhid olub. Bundan əvvəl isə təmas xəttinin Ağdam istiqamətində düşmən snayperi Azərbaycan Ordusunun mayor rütbəli tabor komandiri Aqil Omarovu vurmuşdu.**



Erməni mətbuatı isə bu hadisəni həyasızlıqla işıqlandıraraq Azərbaycan əsgərinin vurulmasına şəxsən Ermənistanın müdafiə naziri David Tonoyanın əmr verdiyini bildirib. Bu isə artıq işğalçı ölkənin bütün beynəlxalq qanunlara və müharibə qaydalarına ən böyük hörmətsizliyi, o cümlədən qudurğanlığıdır.

Fikir versək görərik ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri ərəfəsində mayor Aqil Omarovun qətlə yetirilməsi, hazırda XİN rəhbərlərinin görüşü ərəfəsində daha bir hərbçimizin vurulması əsl təxribatdır. Bununla da Ermənistan hakimiyyəti bir daha göstərir ki, bu işğalçı ölkə atəşkəs rejiminin qorunub saxlanmasını, sülh danışıqlarının konstruktiv məcrada davam etməsini istəmir.

Ermənistanın müdafiə naziri David Tonoyanın həyasızlığının daha bir göstəricisi odur ki, bu rəzil general Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı şəxsən göstəriş verdiyini özü bəyan edir və bu əməliyyatı icra edən erməni hərbçiləri mükafatlandırır.

Burada bir məqama da diqqət yetirmək lazımdır. Ötən həftə Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyandan təmas xəttindəki təxribatlar və Azərbaycan Ordusunun zabitinin vurulması barədə soruşulub. O isə təxribatları inkar etməyə çalışıb. Paşinyan deyib ki, guya zabitin vurulması faktı ilə bağlı təmas xəttinin həmin istiqamətində dayanan erməni əsgərlərinin hamısının silahları yoxlanılıb, videomüşahidə kameralarının görüntüləri izlənilib və atəşin erməni əsgərləri tərəfindən açılmadığı "təsdiqlənib". Guya həmin dəlillər Azərbaycan tərəfinə də təqdim edilib.

Əlbəttə, Ermənistan baş nazirinin dedikləri absurddur və söhbət xüsusi təyinatlı snayperçi tərəfindən həyata keçirilmiş təcavüz aktından gedir. Burada isə "silahların yoxlanılması" barədə deyilənləri məsuliyyətdən yayınmaq da hesab etmək olar.

Təbii ki, elə həmin ölkənin müdafiə nazirinin baş nazirin əksinə açıqlama ilə çıxış etməsi sübut edir ki, ya baş nazir ölkəni idarə edə bilmir, ya da bütün bunlar yalandır və sülh danışıqlarından qaçmaq üçün yeni imitasiya variantıdır.

İndi daha bir erməni rəzilliyi barədə: Paşinyanın müdafiə naziri Azərbaycan əsgərinin vurulması üçün əmri şəxsən verdiyini təsdiqləyir, üstəlik həmin əmri icra edənləri mükafatlandırır. Bu da düşmənin həyasızlığının miqyasının getdikcə artması deməkdir. Belə vəziyyətdə Azərbaycan təmas xəttində gərginliyin azaldılmasına dair ötən il Paşinyanla Düşənbədə əldə edilmiş şifahi razılaşmaya daha nə qədər sadiq qala bilər ki?..

Düşmənə qarşı müdafiə naziri Zakir Həsənovun bu yaxınlarda qoşunlara verdiyi göstərişdə deyildiyi kimi, bütün silah və vasitələrdən istifadə etməklə əsl qisas, cəza əməliyyatını həyata keçirməyin vaxtı çatıbdır. Azərbaycan Ordusu öz gücü və peşəkarlığı, ən müasir silahları ilə Ermənistan hərbi qüvvələrini tamamilə susdurmağa hazırdır. Bunu Ermənistanda da yaxşı anlayırlar.

Lakin bu gün Nikol Paşinyan hakimiyyəti seçki öncəsi verdiyi sosial- iqtisadi vədləri yerinə yetirə bilmədiyinə və "Qarabağ klanı"nın sərt etirazı ilə qarşılaşdığına görə erməni cəmiyyətindəki qəzəbi səngərlərə daşımağa ermənilərin hakimiyyətinə olan etimadsızlığını cəbhə xəttində yumşaltmağa çalışır.

Cəbhə xəttində baş verən son qanlı hadisələr bir daha göstərir ki, istənilən halda Ermənistan öz yalanları ilə artıq həmsədrləri və beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Ancaq aydın görünür ki, dünyadakı "ikili standartlar prinsipi" beynəlxalq gücləri hələ də Ermənistana sərt təpki göstərməyə, onun işğalçılıq planlarına ciddi şəkildə etiraz etməyə imkan vermir.

Belə olan halda Azərbaycan Ordusunun bir variantı qalır: təxribatlar davam etsə Ermənistan ordusu üzərində növbəti Aprel zəfəri qaçılmaz olacaq.

**Elçin Zaman,**
***"İki sahil"***

# TANAP - enerji təhlükəsizliyində əvəzolunmaz layihə



**Beynəlxalq aləmdə Avropanın ən böyük enerji və infrastruktur layihəsi kimi diqqət mərkəzində olan Cənub Qaz Dəhlizi çərçivəsində uğurlar qazanılıb. Ötən il Azərbaycanın təşəbbüsü və liderliyi ilə iki qitədə və bir neçə ölkədə həyata keçirilən bu möhtəşəm meqa-layihənin 4 seqmentindən 3-nü - "Şahdəniz-2", Cənub Qafqaz Boru Kəmərinin genişləndirilməsi və TANAP layihəsinin birinci hissəsi uğurla başa çatdırılıb. Azərbaycan perspektivli Avropa qaz bazarında artan tələbatla mövcud təchizat arasında yaxın illərdə yaranacaq boşluğun aradan qaldırılmasına öz töhfəsini verəcək və bütün hazırkı qaz təchizatçıları ilə bərabər bu bazarda özünə layiqli yer tutacaq.**

Qeyd edilən layihələrdə Azərbaycanın mənafeyini qorumaq, dövlətimiz tərəfindən layihə iştirakçılarına hərtərəfli kömək göstərilməsini və əlverişli şəraitin yaradılmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 29 oktyabr tarixli Sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Habelə ölkə başçısının 2014-cü il 25 fevral tarixli Sərəncamına əsasən, səhmlərinin 51 faizi dövlət mülkiyyətində - İqtisadiyyat Nazirliyi, 49 faizi isə SOCAR-a məxsus "Cənub Qaz Dəhlizi" QSC (CQD) təsis edildi. Azərbaycan tərəfdən layihələrin iradə edilməsi SOCAR-ın "SOCAR Upstream Management International" və "SOCAR Midstream Operations" şirkətləri tərəfindən həyata keçirilir. Həmin şirkətlər layihələrin tərkibində yaradılmış bütün komitələrdə təmsil olunur və operatorlarla birgə layihənin icrasında əməkdaşlıq edirlər. SOCAR layihələrdə dövlətin maraqlarını təmin etməklə yanaşı, əsas qərarların qəbul edilməsində də iştirakçıdır. Layihənin maliyyələşdirilməsi isə "Şahdəniz-1"dən əldə edilən gəlirlərin sərmayə olaraq yatırılması, o cümlədən də "Cənub Qaz Dəhlizi" QSC-nin səhm kapitalına, yerli və xarici maliyyə bazarlarından cəlb olunmuş borc vəsaitləri hesabına həyata keçirilir.

40 il ərzində istifadədə olması gözlənən TANAP-la bağlı saziş 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevlə o zaman Türkiyənin Baş naziri olan Rəcəb Tayyib Ərdoğan arasında imzalanıb. Beş il ərzində reallaşdırılması planlaşdırılan kəmərin tikintisi əvvəlcə 7,5 milyard dollar olaraq nəzərdə tutulub, sonradan qiyməti 12 milyard dollara qalxıb. 2012-ci ildə "Şahdəniz-2" layihəsi üzrə Türkiyə və Azərbaycan siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP tikintisi ilə bağlı razılıq əldə edildi. Layihə çərçivəsində hasil olunacaq qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm addımlar atıldı, TANAP və TAP qaz boru kəmərlərinin inşasına dair sazişlər imzalandı. 2015-ci il martın 17-də isə Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstanın o vaxtkı Prezidenti Giorgi Marqvelaşvilinin iştirakı ilə TANAP-ın təməli qoyuldu. TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ardahan vilayətinin Posof mahalından başlayaraq 21 vilayətdən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır.

Keçən il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başladı. Türkiyə bu vaxtadək TANAP-la 1,5 milyard kubmetrdən çox Azərbaycan təbii qazı alıb. İyunun sonunadək bu həcm 2 milyard kubmetr, cari ilin axırına kimi 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması planlaşdırılır.

TANAP-ın istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə ölkə Prezidenti İlham Əliyev vurğulayıb ki, bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür: "TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq... TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. TANAP yeddi ölkəni, bir çox şirkətləri birləşdirir. Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir."

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin isə artıq 99 faizi başa çatıb. Boru kəməri bu il TAP-a birləşmək üçün hazır olacaq. TANAP layihəsi üzrə kapital xərcləri 8 milyard dollardır ki, bu vaxtadək təxminən 6 milyard dollar xərclənib.

"Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir. TANAP-ın səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi isə BP şirkətinə məxsusdur.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir.

✍ **Orxan Vahidoğlu,**
***"İki sahil"***

# *Deputat:* Müstəqil Azərbaycanın bünövrəsi 15 iyun tarixində qoyuldu



**"15 İyun - Milli Qurtuluş Günü Azərbaycanın tarixində ən əlamətdar günlərdən biridir" deyən Milli Məclisin deputatı Cavid Osmanov mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,** 15 iyun 1993-cü ildə Azərbaycanın dünya xəritəsindən silinməsinin qarşısı alındı: "Çünki həmin tarixdə dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gəlişi ölkəmizi düşdüyü ağır durumdan xilas etdi. O vaxt Azərbaycana dövlət quruculuğundan başı çıxmayan, xarici siyasətdən anlayışı olmayan insanlar rəhbərlik edirdilər. Bununla da ölkədə xaos, anarxiya, özbaşınalıq, quldurluq baş alıb gedirdi. Digər bir tərəfdən qondarma "Talış-Muğam Respublikası"nın yaradılması ilə bağlı Əlikram Hümbətovun quldur dəstəsi, şimal-şərq tərəfdən qondarma "Ləzgistan" dövlətinin yaradılması ilə bağlı atılan addımlar, digər tərəfdən Surət Hüseynov və onun tabeçiliyinə keçmiş 709 saylı hərbi hissə artıq o vaxtkı AXCP-Müsavat cütlüyünə qarşı müharibə açmışdı. Bu cür ağır durumda xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyev siyasi hakimiyyətə gəldi. Ulu Öndər ölkə vətəndaş müharibəsinin astanasında olduğu bir vaxtda ilk riskli səfərini 13-14 iyun tarixlərində məhz Gəncəyə etdi. Dahi şəxsiyyəti həm Bakıda, həm də Gəncədə yüz minlərlə, milyonlarla insanlar alqışlarla qarşıladılar. Onun ətrafında birləşdiklərini bildirdilər. Artıq Ulu Öndər 15 iyunda Ali Sovetin sədri seçildi. Bununla da bugünkü müstəqil Azərbaycanın bünövrəsi məhz 15 iyun tarixində qoyuldu".

"Bugünkü Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Çünki bu gün də ulu öndər Heydər Əliyev siyasəti yaşayır. Bu siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev müasir zamanın tələblərinə uyğun olaraq uğurla və məqsədyönlü şəkildə davam və inkişaf etdirir. Bu gün Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli inkişaf edən qüdrətli bir dövlətə çevrilib. Təbii ki, bütün bu uğurlar Ulu Öndər siyasətinin təntənəsidir", - deyə deputat bildirdi.

✍ **Mənsumə Babayeva,**
***"İki sahil"***

# Transxəzər magistralı layihəsi xarici medianın diqqətində




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin Azərbaycanın Rəqəmsal Mərkəzə çevrilməsi istiqamətində icra etdiyi "Azerbaijan Digital HUB" proqramı və proqram çərçivəsində həyata keçirilən Transxəzər magistralı layihəsi xarici mətbuatın diqqətindədir.

Transxəzər magistralı layihəsi ilə bağlı Azərbaycan və Qazaxıstan arasında dövlətlərarası sazişin imzalanması və hər iki dövlət tərəfindən təsdiqlənməsi barədə xəbər Çinin Hong Kong şəhərində fəaliyyət göstərən və bu ölkənin qlobal "Bir Kəmər, Bir Yol Təşəbbüsü" layihəsi barədə xəbər, təhlil, müxtəlif baxış bucaqlarının təqdim olunduğu "Belt and Road News" portalında verilib.

Məlumatda Transxəzər magistralı layihəsi üzrə Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabelin çəkilməsini nəzərdə tutan dövlətlərarası sazişin Qazaxıstan hökuməti, daha öncə isə Azərbaycan Respublikası tərəfindən təsdiq edildiyi, layihənin Azərbaycan tərəfdən ölkənin ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan "AzerTelecom" şirkəti, Qazaxıstan tərəfdən isə telekommunikasiya operatorları olan "Transtelecom" və "KazTransCom" şirkətləri tərəfindən icra edildiyi qeyd olunur. Bildirilir ki, layihənin məqsədi Azərbaycan-Qazaxıstan marşrutu üzrə Avropadan Çinə qədər Azərbaycan və Qazaxıstandan keçəcək rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək Yolu) yaradılması, Orta Asiya və Çinə internet trafikinin ötürülməsidir. Layihənin Çinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" (BRI) layihəsinə də öz töhfəsini verəcəyi və Azərbaycanı "Belt and Road Initiative" (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevriləcəyi qeyd olunur.

"Digital HUB" proqramına hazırda Asiya regionunun böyük dövlətləri tərəfindən mühüm maraq vardır. Bu yaxınlarda Çinin paytaxtı Pekin şəhərində keçirilmiş "Bir Kəmər, Bir Yol" 2-ci Beynəlxalq Forumu çərçivəsində "AzerTelecom" və Çinin telekommunikasiya nəhəngi "China Telecom" arasında bağlanmış Əməkdaşlıq barədə Memorandum da Çin şirkətlərinin bu layihəyə marağını göstərir.

Qeyd edək ki, "Digital HUB" proqramı özündə Azərbaycanın Qafqaz, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevrilməsi, ölkədə milli rəqəmsal ekosistemin, innovasiya mühitinin inkişafını nəzərdə tutur. Proqramın reallaşması ölkənin Milli IT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

# *Deputat:* Bu tarixi hadisədən sonra yeni siyasi tariximizin fundamental təməlləri yaradıldı

Azərbaycanın ən yeni tarixində xalqımız tərəfindən qeyd olunan mühüm günlərdən biri 15 İyun Milli Qurtuluş Günüdür. Məhz 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı həm strateji, həm də ümummilli baxımdan çox mühüm əhəmiyyət kəsb edən hadisə idi.

**Milli Məclisin deputatı Hikmət Babaoğlu sözügedən məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki,** 1993-cü ilin 15 iyun günündə ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi Azərbaycanın siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu: "Ölkənin mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında istinad etdiyi rasional seçim strategiyası və bunun fonunda atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən və mütəmadi eskalasiya vəziyyətində qeyri-müəyyənliklə təzahür olunan destruktiv proseslərin mərhələli şəkildə neytrallaşdırılmasına nail olundu. Həmin tarixi dövrün qanunauyğunluqlarına və reallıqlarına bir daha nəzər yetirdikdə belə bir nəticəyə gəlmək olur ki, qeyri-formal milli dövlət və modern cəmiyyət quruculuğu prosesinin sistematik surətdə əsası qoyulmamışdan öncə ölkə daxilində bir sıra dağıdıcı ünsürlərin qarşısının alınması, diskriminasiya və kataklizmlərlə müşayiət edilən xaotik proseslərin neytrallaşdırılması, bütün bunların fonunda isə siyasi sabitliyin təmin edilməsi lazım idi. Ümummilli lider Heydər Əliyev ilk növbədə sadalanan strateji vəzifələr üzərindən hərəkət edərək buna nail oldu".

H.Babaoğlu onu da bildirdi ki, ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra da dövlət çevrilişlərinə cəhdlər edilsə də onların qarşısı siyasi rasionallıqla zamanında görülmüş tədbirlər sayəsində alındı: "Digər tərəfdən, əgər 1991-1993-cü illərdə çevriliş cəhdləri hakimiyyət boşluğu və böhranından, ölkəyə rəhbərlik edən şəxslərin siyasi irrasionallığından qaynaqlanırdısa, 1993-cü ildən sonrakı cəhdlər ümummilli lider Heydər Əliyevin siyasi sabitliyi və ümummilli bütövlüyü təmin etmək üçün gördüyü tədbirlərə əks reaksiya idi. Başqa sözlə, Ulu Öndərin sistematik tədbirlər planının fonunda məlum çevriliş cəhdlərinin arxasında və əsasında duran dağıdıcı daxili və xarici



qüvvələr ölkəmizdə siyasi sabitliyin təmin edilməsinə yönəlik strateji tədbirlərin qarşısını almağa və ölkədə yenidən anarxiya mühitini bərpa etməyə çalışırdılar. Amma ölkədəki situasiya əvvəlki kimi deyildi. Ulu öndər Heydər Əliyevin sürətli strateji tədbirlər planı və milli siyasəti sayəsində ictimai-siyasi palitrada kardinal səciyyə daşıyan mərhələli reformativ tədbirlər görülmüşdü və bunun sayəsində bölücü faktorların neytrallaşdırılması mümkün idi. Bütün bu strateji tədbirlər sayəsində ictimai-siyasi müstəvidə siyasi sabitliyin təmin olunmasına nail olundu. Bu kritik tarixi hadisədən sonra Azərbaycan etnik və regional separatçılıqdan, vətəndaş müharibəsindən qurtuldu, ölkəmizdə ən yeni siyasi tariximizin fundamental təməlləri yaradıldı və Azərbaycan sabit və dinamik inkişaf yoluna çıxarıldı. Bu gün də həmin yol inamla davam etdirilir və heç şübhəsiz ki, bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin gərgin əməyi səmərəli fəaliyyəti sayəsində mümkün olur. Olduqca mürəkkəb bir regionda hazırkı inkişafa və sabitliyə nail olmaq yalnız 1993-cü ilin 4 iyun hadisələrindən obyektiv dərs çıxarmaq və onun nəticələrini düzgün qiymətləndirməklə mümkün ola bilərdi ki, Azərbaycan da bunu bacardı".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Xalqımızı nicata aparan yol

"Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Bu gün xalqımız üçün əsl qurtuluş tarixidir". **Bu fikri politoloq Fikrət Sadıqov 15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyətini qəzetimizə şərh edərkən söylədi.**

F.Sadıqov bildirdi ki, bu tarixi yaradan Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan, ona arxa, dayaq olan bir insan - ümummilli lider Heydər Əliyevdir: "Həmin ərəfədə Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi



ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz ümummilli lider Heydər Əliyevdir. Xalqımız ulu öndər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi".

F.Sadıqov söylədi ki, iyunun 15-də dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi: "Ulu Öndər böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı. Azərbaycanın qazandığı bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və cənab Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlar qazanılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan ulu öndər Heydər Əliyevin ideyalarının əsasında, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək".

**Cavid Əkbərov, *"İki sahil"***

# Masazırda içməli su layihəsinin icrasına başlanılıb



"Azərsu" Açıq Səhmdar Cəmiyyəti Bakı şəhəri və ətraf qəsəbələrdə əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir. Səhmdar Cəmiyyətin Tədbirlər Planına uyğun olaraq Abşeron rayonunun Masazır qəsəbəsində yeni layihənin icrasına başlanılıb.

Layihə çərçivəsində Masazır qəsəbəsinin Sarı Aşıq küçəsində və ətraf ərazilərdə mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılır. Bu ərazilərin böyük hissəsində mərkəzləşdirilmiş içməli su təchizatı sistemləri mövcud olmayıb. Su təchizatı əhali tərəfindən primitiv qaydada yaradılmış və istismar tələblərinə cavab verməyən şəbəkə hesabına aparılıb. Su xətləri istismara yararsız vəziyyətdə olduğundan tez-tez qəzalar baş verirdi. Xüsusilə yay aylarında yüksək ərazilərdə yerləşən evləri su ilə təmin etmək üçün suyun təzyiqini artırmaq mümkün olmurdu. Bütün bunlar nəzərə alınaraq ərazidə mərkəzləşdirilmiş su təchizatı sistemlərinin yaradılması layihəsinin icrasına başlanılıb.

Layihə çərçivəsində Masazır qəsəbəsi Sarı Aşıq küçəsi və ətraf ərazilərdə müxtəlif diametrli borularla 18 km uzunluğunda su şəbəkəsi inşa edilir. Yeni yaradılan şəbəkədən abonentlərə birləşmə verilərək sayğaclar quraşdırılacaq. Ümumilikdə bu ərazilərdə görülən işlərdən 5 minədək sakin faydalanacaq. Su təchizatında dayanıqlığın təmin edilməsi məqsədilə yeni inşa edilən şəbəkə 2 nöqtədə əsas magistral xətlərə qoşulacaq. Bu da qəsəbənin relyef baxımından yüksəklikdə yerləşən yaşayış evlərini də dayanıqlı içməli su ilə təmin etməyə imkan yaradacaq.

Tikinti-quraşdırma işlərinin yay aylarında başa çatdırılması nəzərdə tutulur.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Beynəlxalq konfransda azərbaycanlı alimin məruzəsi dinlənilib



Moskvadakı Rusiya Federasiyası Silahlı Qüvvələrinin Mərkəzi Muzeyində həmin muzeyin 100 illik yubileyinə həsr edilmiş "Keçmişi yadda saxlayaraq, gələcəyə inanırıq" mövzusunda Beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransda "QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İctimai Birliyi sədrinin birinci müavini, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 1918-ci ildən formalaşması və inkişafı" mövzusunda elmi məruzə ilə çıxış edib. Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi və inkişaf mərhələlərindən geniş söhbət açan alim çar Rusiyasının süqutundan sonra Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin nəticəsi olaraq, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə ölkəmizdə aparılan ordu quruculuğundan, 1920-ci ildə bolşevik Rusiyası tərəfindən yenidən işğal olunan Azərbaycanda Silahlı Qüvvələrin durumundan, xüsusilə Böyük Vətən Müharibəsi illərində azərbaycanlıların alman faşizminə qarşı döyüşlərdə göstərdikləri igidliklərdən konkret faktlar əsasında ətraflı danışıb.

Məruzəsində müstəqil Azərbaycan Respublikasında ordu quruculuğu məsələlərindən ətraflı bəhs edən P.Gözəlov bildirib ki, hazırda dünyanın ən güclü 50 ordusu sıralarında yer alan bugünkü Azərbaycan Ordusu müstəqilliyin ilk illərindən başlayaraq Ermənistanın hərbi təcavüzünün aradan qaldırılması uğrunda mübarizənin daim ön cərgələrində olub. Bildirilib ki, xüsusilə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkədə ordu quruculuğu yüksək səviyyədə formalaşmağa başladı. Hazırda ulu öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əzmkar fəaliyyəti nəticəsində Azərbaycan Ordusunun maddi-texniki bazası gündən-günə möhkəmlənir, ordumuzun müasir silahlarla təminatı sahəsində təxirəsalınmaz tədbirlər həyata keçirilir, hərbi qulluqçular arasında möhkəm döyüş ruhu və yüksək nizam-intizam hökm sürür. Məruzə zamanı konfrans iştirakçılarına mövzuya aid fotoslaydlar nümayiş etdirilib.

GƏNCLİYİMİZ GƏLƏCƏYİMİZDİR

# Azərbaycan gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir

**Müsahibimiz Bakı Slavyan Universitetinin tələbəsi Murad Sadıqovdur**



***- Murad, ilk olaraq özün haqqında danış.***

- 1999-cu il oktyabrın 6-da Bakı şəhərində dünyaya gəlmişəm. 2005-ci ildə 170 saylı tam orta məktəbə daxil olmuşam. 2016-cı ildə Bakı Slavyan Universiteti-nə(BSU) qəbul olunaraq tələbə adını almışam. Hazırda bu universitetin Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin üçüncü kursunda oxuyuram. Asudə vaxtlarımı daha çox idman etməklə və gəzintiyə çıxmaqla keçirirəm. Yeni Azərbaycan Partiyası BSU ərazi ilk partiya təşkilatı Gənclər Birliyinin sədriyəm. Bir neçə ay olar ki, bu vəzifəyə seçilmişəm. Bunun üçün başda rektorumuz Nurlana Əliyevaya, Yeni Azərbaycan Partiyası universitet ərazi ilk partiya təşkilatının sədri Sevinc Axundovaya dərin minnətdarlığımı bildirirəm.

***- Səncə, ixtisası düzgün seçmək nə dərəcədə önəmlidir?***

- Mən ixtisasımı tam azad şəkildə özüm seçmişəm. Çünki diplomatiya və beynəlxalq əlaqələr hər zaman maraq dairəmdə olub. İnsanlar peşə seçərkən onların qərarlarına təsir edəcək bir çox amillərlə qarşılaşırlar. Bəzi hallarda insanın peşə seçimində həyat şərtləri də rol oynayır. Ancaq peşə seçiminə təsir edən əsas faktorlardan biri məhz ailədir. Demək olar ki, bir çox uşaqlı ailələri düşündürən əsas sual da övladlarının "Böyüyəndə kim olacaq" sualıdır. Ümumiyyətlə, peşə seçimi elə bir anlayışdır ki, biz özümüzə hər hansı bir ixtisas seçməklə bir növ gələcək həyatımızı da zəmanət altına almış oluruq. Əlbəttə, valideynlər öz uşaqlarının uğurlu mütəxəssis olmasını istəyir. Ancaq bu o demək deyil ki, gənclər mütləq şəkildə valideynin peşəsini davam etdirməlidirlər. Mənim fikrimcə, ixtisas seçimində iki əsas faktor var: sevmək və müstəqil olmaq.

***-Yeni Azərbaycan Partiyasının bugünkü fəaliyyəti haqqında nə deyə bilərsən?***

-Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib. YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki avanqard yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər də böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti məhz gənclərdən ibarətdir. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərin inkişafına geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib.



***-Murad üçün Vətən hansı anlamı ifadə edir?***

-Vətənini, millətini sevən insan, eyni zamanda, ailəsinə də ehtiramla yanaşır, can yandırır, Vətən uğrunda canını belə verməyə hazır olur. Artıq kiçik yaşlarından vətənpərvərlik ruhunda böyüdülən bir şəxs gələcəyi ilə bağlı düşünərkən daha çox Vətəni, milləti üçün fikirləşir. İnsan özlüyündə bu sualı verməlidir ki, mən xalqımın, millətimin rifahı üçün nə etməliyəm, inkişafı üçün hansı işləri həyata keçirməliyəm sonra isə sualların cavabı naminə əlindən gələni etməlidir. Mən Vətənim üçün hər an hər şey etməyə hazıram. Özümdə lazımi iradəni, gücü, əzmi, vətənpərvərliyi, qəhrəmanlığı, mərdliyi görə bilirəm. Çünki mən Azərbaycan torpağının oğluyam.

***-Mütaliə cəmiyyətin gələcək inkişafı üçün hansı önəmi daşıyır?***

-İnsan zəkasının inkişafında müstəsna rol oynayan mütaliə, eyni zamanda, onun mənəvi inkişafı, digər insanlarla müasibəti, gündəlik hadisələrə baxış tərzi, qərarların verilməsi və s. məsələlərdə mühüm rol oynayan əsas amillərdən biridir. Mütaliə üçün vaxt məsələsi əsas əhəmiyyət kəsb edən amildir. Nədənsə asudə vaxtının demək olar ki, çoxunu mənasız şeylərə sərf edən insan həmin vaxtın hər gün bir saatını mütaliəyə ayırmır. Kitab oxumağı alışqanlıq halına gətirmiş insanlar bunun üçün hər fürsəti dəyərləndirirlər. Oxuyan və oxuduğunu yaxşı dəyərləndirməyi bacaran insan hər zaman öndədir, fərqlidir, mübahisə və müzakirə bacarığı yaxşı olan biridir.



***-Dövlətimizin gənclərimiz üçün yaratdığı imkanlara münasibətin necədir?***

- Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan gənclər siyasəti bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Dövlətin yaratdığı geniş imkanlar nəticəsində gənclər cəmiyyətin vacib qüvvəsinə çevrilib. Azərbaycan dövlətinin gənclər siyasətinin əsas məqsədi intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Prezident İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsində gənclərə böyük inam bəsləyir, onlara yüksək şərait yaradılması istiqamətində Dövlət proqramları qəbul edilir. Son illər gənclər siyasətinə ayrılan diqqət və qayğının nəticəsidir dövlət siyasətində gənclərlə iş önəmli yerlərdən birini tutur. Bu gün Azərbaycanın gənclər siyasəti nəinki regionda, bütün dünyada müasir və uğurlu model kimi qiymətləndirilir.

***-Gənclərimizi necə görmək istəyirsən?***

-Gənclər millətin varlığının əsas təməlidir. Hər bir gənc təhsil almalıdır və ölkəsi, milləti üçün savadlı və intellektual şəxsiyyət kimi yetişməlidir. Azərbaycan gəncliyini özünə inanan, sevgi dolu, kitab oxuyan, filmlərə baxan, rəsm sərgilərinə, teatrlara gedən və öz yolunda vicdanlı biri kimi görmək istəyirəm. Daim gündəmi, yerli və xarici xəbərləri izləsinlər, informasiya qəbulunu ləngidib, dayandırmasınlar. Gündəmdən daim xəbərdar olsunlar. Dünyagörüşləri, intellektual səviyyələri, savadları daim yüksək səviyyədə olsun. Bütün bunlar üçün də daim öz üzərlərində işləsinlər. Xarici ölkələrdə himnimizin səsləndirilməsi, bayrağımızın dalğalandırılması, Azərbaycan adının lövhələrdə ilk sıralarda yazılması məni xoşbəxt edir, qürurlandırır. Gənclərimiz heç bir pis vərdiş aludəçisi olmasınlar. Bu onların həm sağlamlıqlarını, həm hazırkı, həm də gələcək həyatlarını məhv etmiş olur. Gələcəyimizin zərərli vərdişlərə "qaraldılmasını" istəmirəm. İstərəm ki, onun yerinə idmanla məşğul olsunlar. Bu, onların sağlam yaşamı üçün də çox faydalı seçim olardı.

***-Murad, gələcəklə bağlı hansı planların var?***

-Allahın da izni ilə, özümü gələcəkdə hərbi sahədə görürəm. Bütün planlarımı məhz bu arzum üzərində qurmuşam. Məqsədimə nail olacağıma da əminəm. Fikrimcə, Vətənin keşiyində durmaq bütün şərəfli işlərin baş tacıdır. Gələcəyimin qalan hissəsini Vətənimin firavanlığına həsr etməyi düşünürəm. Bunun üçün gücüm çatan bütün işləri görməyə hazıram.

**✍ Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# İqtisadi inkişafın məqsədi insanların daha yaxşı yaşamasını təmin etməkdir

*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişilinin www.yap.org.az saytına müsahibəsi*



***-Tahir müəllim, bir müddət öncə Milli Məclis tərəfindən Vergi Məcəlləsinə mühüm dəyişikliklər edildi. Bu dəyişikliklərdən sonra əldə olunan nəticələrə bağlı nə deyə bilərsiniz?***

- 2019-cu ilin ilk rübünün nəticələri göstərdi ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və vergi orqanlarının yeni yanaşma metodları öz müsbət nəticələrini verir. 2018-ci ilin birinci rübü ilə müqayisədə vergi yığımının 16,5 faiz, qeyri-nef-qaz sektoru üzrə vergi daxilolmalarının 18,5 faiz, regionlardan vergi daxilolmalarının 24,3 faiz, məcburi dövlət sosial sığorta ödənişlərinin 10,8 faiz artması həyata keçirilən islahatların bariz nümunəsidir. Yanvarın 1-dən qeyri-dövlət və qeyri-neft-qaz sahəsində çalışan insanların əməkhaqqından tutulan vergi dərəcəsinin 0 faizə endirilməsi öz nəticəsini verir. Keçən il 90 min əmək müqaviləsi bağlandığı halda, bu ilin təkcə ilk rübündə bu say 66 mindən çox olub. Bundan başqa, qeyri-neft sektorunda vergi daxilolmalarının həcmi birinci rüb ərzində 18,5 faiz artıb.

Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması ilə bağlı qanunvericilik aktının 2021-ci ilədək uzadılması də mühüm addımdır. Görülən tədbirlər, xüsusilə sahibkarlıq sahəsində yoxlamaların yumşaldılması "Doing Business" reytinqində Azərbaycanın birdən-birə 32 pillə irəliləməsinə şərait yaradıb.

Sosial ödənişlərlə bağlı seqmentin də Vergilər Nazirliyi sisteminə cəlb edilməsi yığımların optimallaşdırılması və maliyyə resurslarının mərkəzləşdirilməsi baxımından daha optimanl bir formatın tapılması haqqında fikir söyləməyə əsas verir.

***- Vergi Məcəlləsinə dəyişikliklərdən sonra ən yaxşı nəticə hansı sahədə əldə olunub?***

-Dəyişikliklərin müsbət nəticələri özünü əsasən əmək müqavilələrinin rəsmiləşdirilməsi, vergidən yayınma hallarının azalması, vergiyə cəlb olunan dövriyyənin artması istiqamətində göstərib. Əməkhaqqının leqallaşdırılması istiqamətində verginin 0 faizə endirilməsi də öz bəhrəsini verir.

Təcrübələr göstərir ki, qeyri-leqal, yəni "kölgə iqtisadiyyatı"nda çalışan sahibkarların fəaliyyət müddəti bir ildən çox olmur. Məcəlləyə dəyişikliklər nəticəsində sahibkarların daha çox leqal işləməsi biznesdə bərabər şəraitin yaradılmasına və haqlı rəqabətə gətirib çıxarır. Sahibkarlara güzəştli kreditlərin, investisiya təşviqi sənədinin verilməsi, kimya-sənaye və qeyri-kimya parklarında iştirakla bağlı vergi güzəştləri xarici investorları növbəti mərhələdə daha çox investisiya yatırmağa cəlb etmək üçün mühüm addımlardır.

Bu gün Azərbaycanda 700 minə yaxın sahibkar mövcuddur və bu say ilbəil artır. Məşğul əhalinin muzdlu hissəsini çıxsaq, hər 3 nəfərdən biri sahibkarlıq subyektinə sahibdir. Bu, kifayət qədər böyük göstəricidir. Azərbaycanda ümumi daxili məhsulun 83 faizindən çoxunun özəl sektordan əldə olunması bu sahədə görülən işlərin nəticəsidir. Eyni statistikanı vergi üzrə də görə bilərik. Bu ilin birinci rübündə bütövlükdə özəl sektorun vergi ödənişlərinin həcmi üzrə artım 25 faizdən çoxdur. Bu, onu deməyə əsas verir ki, dövlətin stimullaşdırma tədbirləri sahibkarlar üçün maraqlıdır və bunun sayəsində onların əldə etdikləri fayda xərclərindən daha çoxdur.

***-Bütövlükdə, ölkə iqtisadiyyatında inkişafın yeni mərhələsinin başladığını söyləyə bilərik. Bu faktor əhalinin rifah halının yüksəlməsində də özünü ifadə edir...***

-İqtisadi inkişafın məqsədi insanların daha yaxşı yaşamasını təmin etməkdir. Əhaliyə bütün sahələrdə göstərilən xidmətlərin mənbəyində iqtisadiyyatın inkişafı dayanır. İqtisadiyyat inkişaf etməzsə, dövlət varlı olmazsa və gəlir mənbələri olmazsa, bu xidmətlərin təmin edilməsi kifayət qədər çətin olardı. Ona görə də iqtisadiyyatın inkişafı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sürətli islahatlar Azərbaycanda əldə olunan yeni və əlavə gəlirlərin daha çox vətəndaşa istiqamətlənməsini təmin edir. Biz bunu müşahidə edirik. Bu il ümumi daxili məhsul, sənaye istehsalı, qeyri-neft sənayesində qeydə alınan artımlar dövlət başçısı tərəfindən həyata keçirilən iqtisadi islahatların real nəticələridir.



# Ermənistanın hərbi təxribatları nəyə hesablanıb?

**Vəli İlyasov**

Proseslərin inkişafı təsdiq edir ki, qoşunların təmas xəttində törədilən təxribatların arxasındakı səbəblərdən ən böyüyü Ermənistanın daxilindəki gərgin siyasi mübarizədir. Bu kontekstdə baş nazir Nikol Paşinyanın sürətlə zəifləyən reytinqi və ölkədəki ictimai və iqtisadi  böhran da diqqəti cəlb edir. Mayın 22-də "Gallup" şirkətinin keçirdiyi sorğunun nəticələrinə görə, 2018-ci ilin sentyabrından indiyə kimi ermənilərin 20 faizi həyatından tam, 53,1 faizi qismən razı olduğunu bildirib. Ötən illə müqayisədə həyatlarından razı olan ermənilərin sayı cəmi 5 faiz artıb. 11 faiz erməni ölkədəki iqtisadi situasiyanı yaxşı dəyərləndirdiyi halda 54,4 faiz orta, 33,4 faiz isə pis qiymətləndirib. Respondentlərin fikrincə, hazırda Ermənistanın ən böyük problemləri işsizlik (45 faiz), pis iqtisadi şərait (40 faiz), aşağı əməkhaqqı (26,8 faiz), Qarabağ münaqişəsi (26,1 faiz) və miqrasiyadır (10,5 faiz). Bu nəticələr Paşinyanın reytinqinin alt-üst olduğunu göstərir. Halbuki o, Dağlıq Qarabağ münaqişəsinin ermənilərin problemləri içində 26,1 faiz yox, ən azı 70 faizdən yuxarı təşkil etməsində maraqlıdır. Bunun üçün yeganə yol cəbhədə gərginliyin yaradılması və "xarici düşmən" obrazının gücləndirilməsidir. Çünki cəbhədə sabitlik ermənilərin diqqətini daxili məsələlərə yönəldir. Ona görə də Nikol Paşinyan diqqəti daxili problemlərdən yayındırmağın yeganə yolu kimi hərbi eskalasiyanı görür. Klassik üslubdur və Ermənistanın əvvəlki rəhbərləri də bu üsuldan istifadə ediblər.

Hərçənd, bu klassik üslubun ən böyük hədəfi danışıqlar prosesinin dalana dirənməsidir. Son günlərdə zabitimizin erməni snayperi tərəfindən məhz ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri zamanı şəhid edilməsi də buna hesablanıb.

Bu cür hadisələrdən belə nəticə çıxarmaq lazımdır ki, Ermənistanın başsız başçıları masada baş tutmayan danışıqları cəbhədə oyuna çeviriblər. Sonuncu dəfə martın 29-da Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın Vyanada keçirilən rəsmi görüşündə İrəvanın danışıqlar prosesinin formatını dəyişdirmək planı altüst oldu və danışıqların mahiyyəti üzrə davam etdirilməsi qərarı verildi. Paşinyan prosesi uzatmaq və status-kvonu saxlamaq üçün son variant kimi məhz separatçıları danışıqlara cəlb etmək tezisini irəli sürmüşdü. Bu planın baş tutmaması və Vyanada əldə edilən nəticələr növbəti danışıqlarda münaqişənin konkret həlli variantı üzərində müzakirələrin aparılmasına zəmin yaradır. Həmsədrlərin regiona səfəri də danışıqların növbəti raundunu hazırlamaq məqsədi daşıyırdı. Prosesi masada uzatmaq üçün irəli sürdüyü bəhanələr sıradan çıxandan sonra Ermənistan status-kvonu saxlamaq üçün klassik üsluba - hərbi təxribata əl atdı. Paşinyan bu addımla öz sələflərinin səhvlərini təkrarladı. Lakin onun sələfləri məhz belə səhvlər buraxdıqları üçün Azərbaycan Ordusunun gücü ilə qarşılaşdılar, nəticədə hakimiyyətdən getdilər. Belə davam edəcəksə, Paşinyanı da eyni tale gözləyir. Çünki Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, işğalçı ölkənin dinc sakinlərə və hərbi qulluqçularımıza qarşı istənilən təxribatına adekvat cavab veriləcək. İndiyə qədər belə cavablar verilib və bundan sonra da davam edəcək. Bu proseslərdən beynəlxalq ictimaiyyət, xüsusilə həmsədr ölkələr də nəticə çıxarmalıdırlar. Birincisi, Ermənistan sülh danışıqlarını imitasiya etməklə onları aldadır, ikincisi, belə təxribatlar regionun təhlükəsizliyinə qarşı ciddi təhdiddir.

# Azərbaycanlı alim beynəlxalq festivalda iştirak edib



"QƏSR" Mədəni İrsi və Tarixi Abidələri Qoruyaq İB-nin sədrinin birinci müavini, İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru, bayraqşünaslıq və heraldika üzrə mütəxəssis Pərvin Gözəlov Rusiya Federasiyasının Moskva şəhərində keçirilən XIX Multimuzey Beynəlxalq Festivalının plenar açılış tədbirində iştirak edib.

Festivalın əsas məqsədi muzeylərlə əlaqəli mütəxəssislər arasında dialoq qurmaq və gələcək əməkdaşlıqlara zəmin yaratmaqdır. Pərvin Gözəlov tədbirdə iştirak edən xarici dövlətlərin muzey mütəxəssisləri və tarixçi-alimlərlə fikir mübadiləsi, təcrübə və elmi tədqiqatlar mövzuları ətrafında müzakirələr aparıb.

# İqtisadiyyat Nazirliyi "Bakcell"i mükafatlandırıb

"Bakcell" şirkəti Korporativ Sosial Məsuliyyət (KSM) sahəsində daha bir mükafata layiq görülüb.

İyunun 4-də Bakıda İqtisadiyyat Nazirliyi, Kiçik və Orta Biznesin İnkişaf Agentliyi (KOBİA) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) birgə təşkilatçılığı ilə keçirilən "Dövlət sahibkarın ən yaxşı tərəfdaşıdır" adlı konfransda "Bakcell" "Korporativ Sosial Məsuliyyət" nominasiyası üzrə mükafatlandırılıb. Mükafat iqtisadiyyat naziri Şahin Mustafayev tərəfindən "Bakcell" şirkətinin rəhbərinə təqdim olunub.

Xatırladaq ki, bu ilin əvvəlində "Bakcell" şirkəti "Milli KSM Mükafatı 2018? mükafatının qalibi olub. ASK, Azərbaycan Gənclər Fondu və Prezident şirkətinin təşkil etdiyi tədbirdə "Bakcell"in SOS Uşaq Kəndləri - Azərbaycan Assosiasiyası ilə birgə həyata keçirdiyi "Öz biznesinə başla və təkmilləşdir" layihəsi "Gənc sahibkarlara dəstək üzrə ilin layihəsi" nominasiyasında ən uğurlu KSM layihəsi elan edilib.

"Bakcell" artıq 10 ildir ki, ölkənin ən genişmiqyaslı Korporativ Sosial Məsuliyyət (KSM) proqram-




lardan biri olan "Bakcell Stars" proqramını həyata keçirir. "Bakcell Stars"ın əsas istiqamətlərindən biri xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclər üçün imkanlar yaratmaq, onların cəmiyyətə inteqrasiyasının dəstəkləmək, təhsil və iş imkanları ilə təmin etməkdir.

# QARABAĞ QAZİSİ: Xalqımızın Azərbaycan ordusunun gücünə, qüdrətinə inamı sarsılmazdır

"2016-cı ilin aprel döyüşləri tariximizə şərəfli bir səhifə kimi yazıldı. Belə ki, həmin döyüşlər zamanı ordumuz Ermənistan silahlı qüvvələrinin növbəti təxribatının qarşısını uğurla aldı, üstəlik, yüksək hərbi məharətlə əks-hücum əməliyyatı həyata keçirərək ölkəmizin minlərlə hektar torpağını işğaldan azad etdi. Məhz aprel döyüşlərinin cəsarətli iştirakçılarının qəhrəmanlığı nəticəsində bu gün Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bayrağımız dalğalanır. Fəxr edirəm ki, bu uğurda mənim də zərrə qədər əməyim olub". Bu fikirləri Qarabağ qazisi, II qrup əlil, 29 yaşlı Orxan Əliyev "İki sahil" qəzetinə açıqlamasında söylədi.

Bildirdi ki, bu gün dövlət başçısının tapşırığı ilə aprel şəhidlərinin ailələri və aprel döyüşlərində sağlamlıqlarını itirmiş əsgər və zabitlərimiz mühüm sosial müdafiə tədbirləri ilə əhatə olunublar: "Bu kateqoriyaya aid olan insanlar güzəşt və müxtəlif kompensasiyalardan yararlanırlar. Onlara mənzil və avtomobillər də verilir. Bu mənada tam məsuliyyətlə deyirəm ki, Qarabağ qazilərinə və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib". Müsahibimiz, həmçinin vurğuladı ki, o da bu qayğı və diqqətdən kənarda qalmayıb: "Bildiyiniz kimi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı əsasında Heydər Əliyev Fondu tərəfindən "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi də icra edilir. Ötən dövrdə bu layihə üzrə 100-dən çox zabit və əsgər yüksək texnologiyalı protezlərlə təmin olunub ki, onlardan da biri mənəm. Şübhəsiz, bütün bunlar bizlərə verilən dəyər və qiymətdir. Yeri gəlmişkən, mən bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən avtomobillə (Khazar LX) də təmin olunmuşam: "Bir arzum var. Deyirəm, kaş bir gün işğaldan azad ediləcək torpaqlarımıza həmin avtomobillə səfər edəy-



dim. Düşünürəm ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səyləri nəticəsində bu arzum da tezliklə gerçəkləşəcək".

Həmsöhbətim vurğuladı ki, Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailələri, həmçinin Qarabağ qaziləri ilə mütəmadi görüşlər keçirir, onların problemləri ilə maraqlanırlar: "Mən də dəfələrlə həmin görüşlərin iştirakçısı olmuşam. Zənnimcə, bu görüşlər bir daha sübut edir ki, ölkəmizin müstəqilliyini, konstitusiya quruluşunu və ərazi bütövlüyünü qoruyarkən sağlamlıqlarını itirmiş insanların sosial müdafiəsi Azərbaycan iqtidarı üçün Vətənimizin hərbi müdafiəsi qədər önəmli və vacibdir".

Digər suallarımızı cavablandıran Orxan Əliyev bildirdi ki, o, 2007-ci ildə Astara rayonundakı M.Ə. Sabir adına 1 saylı tam orta məktəbi bitirəndən sonra Bakı İslam Universitetinin şərqşünaslıq fakültəsinə qəbul olunub: "Lakin bu təhsil ocağında iki il təhsil almaqla kifayətləndim. Bu da hərbiyə olan marağımdan irəli gəldi. 2009-cu ildə müddətli hərbi xidmətə yollandım. Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin hissələrində cavuş rütbəsində xidmətdə oldum. Müddətli hərbi xidmətimi başa vurduqdan sonra Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinin gizir hazırlıq kursuna daxil oldum. 2011-ci ildən Bakıdakı hərbi hissələrin birində tank komandiri kimi xidmətimi davam etdirdim. Daha sonra öz istəyimlə ön cəbhəyə yollandım. Onu da deyim ki, kiçik və iriçaplı silahların, zirehli texnikaların, radioelektron avadanlıqların dilini mükəmməl bilirəm".

Vətən qarşısındakı xidmətləri yetərincə dəyərləndirilən, 2017-ci ildən ehtiyatda olan Orxan Əliyev əlil olmasına baxmayaraq, Ali Baş Komandanın döyüş əmrinə daim hazır olduğunu söylədi: "Son illər döyüş meydanlarında əldə olunan qələbələr bizi daha da ruhlandırır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində hərbçilərlə görüşündə səsləndirdiyi bir fikri də dilə gətirmək istəyirəm: "Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir". Bu gün xalqımızın Azərbaycan dövlətinin və ordusunun gücünə, qüdrətinə inamı sarsılmazdır.

O.Əliyev daha sonra bildirdi ki, Lələtəpənin işğaldan azad olunması uğrunda gedən döyüşlərin ilk dəqiqələrindən öz texnikası və tabeliyində olan heyətlə iştirak edib: "Aprelin 3-dən 4-nə keçən gecə yaralandım, nəticədə sol ayağımı itirdim. Bir müddət komada olmuşam. Sonradan öyrəndim ki, o günlərdə möhtərəm Prezidentimiz mənim müalicə olunduğum Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Klinik Hospitalına baş çəkib və hər bir yaralı döyüşçüyə şəfa diləyib. Yeri gəlmişkən, həmin gün Prezident hospitalın həyətində yaralı əsgər və zabitlərin valideynləri, yaxınları ilə də görüşüb. O görüşdə mənim anam Zeynəb xanım da iştirak edib. Hətta anam bu diqqət və qayğıya görə, dövlət başçımıza öz təşəkkürünü də bildirib".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# *Deputat:* 15 İyun tariximizə qızıl hərflərlə yazılıb



"Müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr olub. Tale elə gətirib ki, 1991-1993-cü illər müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsi ilə əlaqədar baş verirdi". **Bu fikri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə söylədi.**

15 İyun - Milli Qurtuluş Gününün əhəmiyyəti barədə danışan A.Mirzəzadə bildirdi ki, Azərbaycanın düşdüyü çox çətin bir məqamda yalnız bir çıxış yolu var idi: "Bu çıxış yolu görkəmli siyasi və dövlət xadimi, o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri olan, Yeni Azərbaycan Partiyasının Sədri ulu öndər Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatlıq keçirən ziyalılar ulu öndər Heydər Əliyevə müraciət edərək onu hakimiyyətə dəvət etdilər. Əlbəttə ki, sağlam düşüncəli insanlar, ziyalılar AXC-Müsavat hakimiyyətinin Azərbaycanı uçuruma apardığını görürdülər. Ona görə də onlar haqlı olaraq hesab edirdilər ki, bu vəziyyətdən xalqı yalnız ümummilli lider Heydər Əliyev kimi lider xilas edə bilər. Bu müraciətləri nəzərə alaraq Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olacağına inamı artırdı. Beləliklə, ulu öndər Heydər Əliyevin ikinci dəfə Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün - 15 İyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu".

A.Mirzəzadə vurğuladı ki, 15 İyun günü Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb və həmin gün əziz bayramdır: "Çünki 15 İyun olmasaydı nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı. Azərbaycanın milli qurtuluşdan başlanan inkişaf və tərəqqisi bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün Azərbaycan vətəndaşları müstəqil Azərbaycanın daha da inkişafı və güclənməsi naminə dövlət başçısının ətrafında sıx birləşiblər. Əgər qurtuluş olmasaydı bugünkü müasir müstəqil Azərbaycandan söhbət gedə bilməzdi. Biz güclü Azərbaycan dövlətində yaşadığımıza görə özümüzü xoşbəxt sayırıq".

**Cavid Əkbərov,**
***"İki sahil"***

## ABONENTLƏRİN SAYI 2 226 675-ə ÇATIB

2019-cu ilin yanvar-may aylarında SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 43 153 yeni abonent qeydiyyata alınmışdır ki, bunun da 21 240-ı Bakı, Abşeron və Sumqayıt, 21 913-ü isə regionlar üzrədir. Yeni abonentlərin sayının artmasında abonent bazasının daha da genişləndirilməsi istiqamətində işlərin aparılması, yaşayış məntəqələrinin qazlaşdırılması və qaz təminatının bərpa edilməsi,



həmçinin təbii qazla təmin olunmuş ərazilərin genişlənən hissələrindəki fərdi yaşayış evlərinin qazlaşdırılması olmuşdur.

Bundan başqa, Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədilə qaz kəmərlərinin yenidən qurularaq şəbəkənin genişləndirilməsi istiqamətində görülən məqsədyönlü işlər öz müsbət nəticəsini göstərmişdir. Aparılan işlər nəticəsində ölkə üzrə təbii qazla təmin olunan abonentlərin sayı 2 226 675-ə çatmışdır.

# "Azərsu"nun mütəxəssisləri Almaniyada



Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin "Cənubi Qafqaz Şəhərlər Şəbəkəsi" layihəsi çərçivəsində "Azərsu" ASC uzun müddətdir Ludviqshafen şəhərinin Kanalizasiya müəssisəsi ilə səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində "Azərsu" ASC-nin Mərkəzi Laboratoriyasının, Hövsan Aerasiya Stansiyasının mütəxəssisləri Ludviqshafen şəhərində keçirilmiş təlimlərdə iştirak ediblər.

"Tullantı sularının analizi" mövzusunda keçirilən təlimlərdə mütəxəssislər Almaniyanın bu sahədəki təcrübəsi ilə yaxından tanış olub, nəzəri və praktiki biliklər əldə edib, tullantı su laboratoriyalarında birgə analizlər aparıblar. Təlimlərdə tullantı sutəmizləyici qurğuların istisması, laboratoriyalarda aparılan analizlər, ekoloji təhlükəsizlik və s. məsələlərlə bağlı bilgilər verilib, müasir texnologiyaların tətbiqi ilə bağlı müzakirələr aparılıb.

Səfər müddətində təlim iştirakçıları bu sahə üçün kadrlar hazırlayan təhsil müəssisəsində də olublar. Həmin məktəbin müəllimi, doktor Jozef Braydenbax içməli və tullantı su nümunələrinin analizi üzrə nəzəri bilikləri "Azərsu" ASC-nin əməkdaşları ilə bölüşüb, məktəbin laboratoriyasında birgə analizlər aparılıb.

Təlim dövründə Almaniyanın BASF korporasiyasının tullantı sutəmizləyici qurğularına səfər təşkil edilib. Burada məişət və sənaye tullantı sularının təmizlənmə texnologiyaları, tullantı sularının tərkibinə nəzarət edən laboratoriyanın fəaliyyəti ilə bağlı geniş məlumat verilib, laboratoriyada quraşdırılmış avadanlıqlar, onların iş prinsipi barədə qarşılıqlı fikir mübadiləsi aparılıb.

"Azərsu" ASC-nin mütəxəssislərinin Bad-Dürkhaym və Şpayer şəhərlərinin tullantı sutəmizləyici qurğularına da səfərləri təşkil edilib. Mütəxəssislər bu qurğulardan tullantı sularının təmizləmədən əvvəlki və sonrakı tərkibinə nəzarət sistemi ilə tanış olublar. "Azərsu" ASC-nin əməkdaşları Lüdviqshafen şəhərinin tullantıların idarə edilməsi və kanalizasiya müəssisəsinin rəhbəri Peter Nebel ilə də görüş keçiriblər.

Qeyd edək ki, Lüdviqshafen şəhəri 1977-ci ildən Sumqayıt şəhəri ilə qardaşlaşmış şəhərdir. Artıq bir neçə ildir ki, "Azərsu" ASC Lüdviqshafen şəhərinin su təchizatı və kanalizasiya müəssisələri ilə təcrübə mübadiləsi sahəsində əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində qarşılıqlı səfərlər təşkil olunur, təlim proqramları həyata keçirilir. Ötən müddətdə almaniyalı mütəxəssislərin Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinə, Hövsan Aerasiya Stansiyasına və digər qurğulara səfərləri təşkil edilib. 2019-cu ilin payızında Ludviqshafen şəhərinin Kanalizasiya müəssisəsinin ekspertlərinin Azərbaycana səfəri gözlənilir. Səfər müddətində almaniyalı mütəxəssislər tərəfindən laboratoriya əməkdaşları üçün təlimlər də keçiriləcək.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# *Sahibkar:* Quba xalçalarına maraq artıb



*"Toxunduğu yerin təbiətini, onu ərsəyə gətirən insanların dünyagörüşünü özündə əks etdirən xalçalar həm xalqımızın məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətimizin bir nümunəsidir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir. Bir sözlə, ölkəmizi xalçasız təsəvvür etmək qeyri-mümkündür. Son illərdə respublikamızda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim dekorativ-tətbiqi sənət növlərindən biri sayılan xalçaçılığa maraq daha da artıb. Bu mənada xalçaçılığın inkişafı yeni dövrə qədəm qoyub desəm, yanılmaram".*

**Bu fikirləri "Qədim Quba" Özəl Xalça Müəssisəsinin direktoru, "Tərəqqi" medallı Humayə Məmmədova "İki sahil" qəzetinə açıqlamasında söylədi.**

Bildirdi ki, bu marağın artması dövlət başçımızın, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalçaçılıq sənətinə, bütövlükdə isə milli dəyərlərimizə olan həssas münasibətlərinin nəticəsidir: "Bu gün ölkəmizin bölgələrində müasir xalça fabriklərinin inşası geniş vüsət alıb. Belə ki, Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Qobustan rayonlarında "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin filialları fəaliyyət göstərir və yeni müəssisələrin inşası davam etdirilir. Onu da deyim ki, xalça fabriklərində toxunan məhsullar artıq "Made in Azerbaijan" brendi ilə dünyaya ixrac olunur. Bu məhsullarla ölkəmiz təkcə maddi gəlir əldə etmir. Bu prosesdə dövlətimizin mənəvi qazancı daha çoxdur. Belə ki, xalçalarımızın hər birində bizim mədəniyyətimiz, dünyaya baxışımız, dünənimiz, bugünümüz nağılvari ilmələrin dili ilə başəriyyətə çatdırılır. Digər tərəfdən, Prezident İlham Əliyevin bildirdiyi kimi, biz xalçaçılığı yaşatmaqla Azərbaycan xalqının nə qədər istedadlı olmasını da dünyaya bir daha göstəririk".



Prezident İlham Əliyevin mənəvi, dövlətimizin maliyyə dəstəyi nəticəsində respublikamızda sahibkarlığın inkişafının geniş vüsət aldığını, respublikamızda güclü sahibkarlar sinfinin formalaşdığını qeyd edən müsahibimizin fikrincə, bu gün hər bir imkanlı adam ölkəmizin müxtəlif bölgələrində sahibkarlığın inkişafında maraqlıdır, odur ki, gündən-günə onların sayı artır: "Şübhəsiz, bu, hər şeydən əvvəl, sahibkarlıq mühitinə göstərilən diqqət və qayğının parlaq təzahürüdür".

Daha sonra Quba xalçaçılıq məktəbindən söz açan müsahibimiz vurğuladı ki, bu rayon həmişə xalçaçılıq mərkəzlərindən biri olub: "Qubada toxunan xalçalar həm respulikamızın, həm də xarici ölkələrin muzeylərində nümayiş etdirilir. Belə ki, bu regionun XVIII-XX əsrə aid Çiçi xalçaları Viktoriya və Albert (London), eləcə də Metropoliten (Nyu-York) muzeylərinin ən qiymətli eksponatları sırasındadır".

Onun sözlərinə görə, Quba xalçaçılıq məktəbi özünəməxsus ilmələri, üslubu və naxışlarına görə fərqlənir: "Qubanı turistlər üçün cazibədar edən əsas cəhətlərdən biri də qədim tarixə malik xalça sənətkarlığıdır. Buraya gələn əcnəbilər adı dillər əzbəri olan, naxışlarının zənginliyi, elementlərinin xırdalığı, ilmələrinin sıxlığı, həmçinin rəng çalarlarının çoxluğu ilə fərqlənən Quba xalçalarına xüsusi maraq göstərir və onları sevə-sevə alırlar. Hətta xalçalarımıza valeh olduqlarını etiraf edirlər. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, Qarabağ xalçalarında ilmələrin sayı hər 5-10 santimetrində 28-30, Gəncə xalçalarında 28-35-ə qədərdirsə, Quba xalçalarında bu məsafəyə 35-dən 60-a qədər ilmə düşür. Quba xalçaçılıq məktəbi özündə 35-ə yaxın ornament kompozisiyalı xalçanı birləşdirir.

Müsahibimiz rəhbərlik etdiyi müəssisəyə də xarici turistlərin baş çəkdiklərini vurğuladı: "Onlar burada həm istehsal prosesi ilə tanış olur, həm də müəssisəmizin nəzdində fəaliyyət göstərən mağazadan müxtəlif çeşnili xalçalar alırlar. Amma müşahidələrimə əsasən onu da deyim ki, son illər ölkəmizin vətəndaşlarının da Quba xalçalarına marağı artıb". Daha sonra "Qədim Quba" barədə ətraflı məlumat verən Humaye Məmmədova bildirdi ki, hazırda rayonda xalçaçılıqla məşğul olan bir neçə müəssisə var ki, onlardan biri də "Qədim Quba"dır: "Bu müəssisə sahibkarlıq subyekti kimi fəaliyyət göstərməklə yanaşı, unudulmaqda olan ənənələrin yenidən bərpa edilməsi, qədim xalq sənətinin yaşadılması, onun sirlərinin gənc nəslə öyrədilməsində də mühüm rol oynayır".

Söhbətinin bu yerində Humay Məmmədova bir maraqlı faktdan da söz açdı: "Bir zamanlar insanlar maşınlarda istehsal olunan xalçalara üstünlük verirdilər. Amma bu maraq uzun sürmədi. Məsələn, mənim qızım ailə quranda cehiz kimi maşınla hazırlanmış xalça apardı. Amma hec 5-6 ay keçməmiş əllə toxunan xalçalara üstünlük verdi. Bir sözlə, son illər yeni ailə quranlar emalatxanamıza gəlir, öz zövqlərinə uyğun qədim xalçalar seçirlər".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Azərbaycan ən çox turist cəlb edən ölkəyə çevrilir



Uğurla reallaşdırılan islahatlar qeyri-neft sektorunun ən gəlirli sahələrindən olan turizmin inkişafına da ciddi təkan verib. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində bu gün turizm iqtisadiyyatımızın aparıcı sahəsinə çevrilib. Ölkəmizdə turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" yeni qanun layihəsi, həmçinin 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası hazırlanıb. Paytaxt Bakı da daxil olmaqla, ölkəmizin ayrı-ayrı regionlarında turizmin müxtəlif növlərini, o cümlədən biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilib. Ölkə başçısı 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum 3 saat ərzində verilməsinə dair sərəncamlar imzalayıb, həmin vaxtdan "ASAN viza" sistemi yaradılıb. Həmçinin Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hava limanlarında əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə viza verilməsi prosedurunun təkmilləşdirilməsi haqqında Fərman imzalayıb. Ötən ilin may ayından etibarən Azərbaycana səfər etmək istəyən 702 min 282 nəfərə viza "ASAN Viza" sistemi vasitəsilə verilib. Bunun 566 min 709-u "ASAN viza" portal, 135 min 523-ü isə həmin ayın ikinci yarısından etibarən hava limanlarında fəaliyyətə başlayan özünəxidmət terminalları vasitəsilə həyata keçirilib.

Ölkəmizə gələn turistlərin sayı qeyri-neft sektorunun gəlirlərini daha da artırır, iqtisadi potensialımızı möhkəmləndirir. Respublikamızdakı ictimai-siyasi sabitlik, əmin-amanlıq, yüksək səviyyəli təhlükəsizlik, infrastruktur və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, ölkəyə gəliş-gedişi, viza sisteminin sadələşdirilməsi, şübhəsiz ki, artımı təşviq edir. Turist axını həm də pul axını deməkdir.

Prezident İlham Əliyev Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib ki, Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir: "İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri var Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, otellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ müalicəvi mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək".

Ölkəmizdə turizm sahəsinə qoyduğu sərmayə öz bəhrəsini verir. Tikilən yeni və müasir otellər, çəkilən dünya standartlarına uyğun yollar, bir sözlə, qurulan infrastruktur Azərbaycanı daha da cəlbedici edib. Qətiyyətlə demək olar ki, qarşıdakı illərdə Azərbaycan nəinki Cənubi Qafqazın, hətta dünyanın ən çox turist cəlb edən ölkələrindən birinə çeviriləcək. Bu gün ölkəmizə maraq göstərən turistlərin sayında da artım müşahidə olunur. 2018-ci ildə respublikamıza gələn turistlərin sayı təqribən 6 faizə yaxın artıb. Belə ki, ötən il ölkəmizə əvvəlki illərdən daha çox -2 milyon 850 min turist gəlib və 2 milyard dollara yaxın pul xərcləyib.

Bu ilin may ayının 29-da UEFA Avropa Liqasının final oyunu ərəfəsində ölkəmizə gələn əcnəbi vətəndaşların sayı 60 000 nəfəri ötmüşdü.

Bütün bunlar onu deməyə əsas verir ki, respublikamızda davamlı xarakter alan genişmiqyaslı islahatların dərinləşməsi möhkəm təməl üzərində qurulub. Bütün bunlar iqtisadi islahatların dərinləşməsi üçün möhkəm baza yaradaraq qarşıda duran vəzifələrin uğurla icra olunmasına, qeyri-neft sektorunun mühüm sahələrindən olan, kəmiyyət və keyfiyyət baxımından yeni mərhələyə qədəm qoyan turizmin inkişaf etdirilməsi sayəsində yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə, respublikamıza valyuta axınının güclənməsinə, xalqın rifah halının daha da yaxşılaşdırılmasına böyük töhfələr verəcək.

**Zahid Rza,**
***"İki sahil"***

# Politoloq: Uğurlarımızın dünyanın aparıcı dövləti tərəfindən etirafı Azərbaycana artan marağın ifadəsidir

**Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr quran Azərbaycanın xarici siyasət uğurları davamlılığı ilə diqqət çəkir. İstər iki, istərsə də çoxtərəfli çərçivədə münasibətlər yüksələn xətlə inkişaf edir. Dünyanın aparıcı dövlətləri ilə münasibətlərdə yaxınlaşmalar diqqətdən kənarda qalmır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Amerikanın dövlət başçısı Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə qısa müddətdə iki məktub ünvanlayıb. Həmin məktublarda Azərbaycan regionun ən uğurlu dövləti və lideri kimi dəyərləndirilib.**

Bununla bağlı politoloq Nəzakət Məmmədova "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki, ABŞ Prezidenti Donald Trampın may ayı ərzində dövlətimizin başçısı İlham Əliyevə iki dəfə məktub göndərməsi diqqəti çəkən mühüm hadisədir: "Belə ki, məktubların biri 28 May - Respublika Günü, digəri isə Beynəlxalq Xəzər Neft-Qaz Sərgisi ilə bağlı idi. Hər iki məktub özündə çox vacib mesajları əhatə edirdi. Ən əsası məktublarda Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində oynadığı rol, region dövləti olaraq lider mövqeyi, ölkəmizdə həyata keçirilən islahatların bütün regionun tərəqqisinə və sabitliyinə xidmət etməsi faktları öz əksini tapıb. Bu etirafların dünyanın aparıcı ölkəsinin dövlət başçısı tərəfindən olunması böyük uğurdur. Azərbaycanın xarici siyasətində əsas tutduğu prinsiplər,




xüsusilə beynəlxalq hüququn norma və prinsiplərinə verdiyi önəm onun dünya birliyinin fəal üzvünə çevrilməsində böyük rola malikdir."

Politoloq bu məqamı da qeyd etdi ki, əvvəlki illərdə ABŞ prezidentlərinin məktublarında əsasən demokratik inkişaf, insan hüquq və azadlıqlarının qorunması və sair kimi məsələlər qeyd olunurdu. Son məktublarda Azərbaycan reallıqlarına digər istiqamətlərdən dəyərləndirmə bir çox məqamlara işıq salır: "İlk növbədə Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməkdə, regional və beynəlxalq əməkdaşlığa davamlı töhfələr verməkdədir. Göründüyü kimi, ABŞ-ı daha çox maraqlandıran məsələ Azərbaycanın regional və qlobal təhlükəsizlik sistemində oynadığı rol, eləcə də ölkənin demokratik inkişafı istiqamətində atdığı addımlar və həyata keçirilən islahatlardır. Bu məktublar həm də ABŞ-Azərbaycan əlaqələrinin bu günü fonunda perspektivlərə aydınlıq gətirir. ABŞ Prezidentinin Azərbaycanla əməkdaşlığı davam etdirmək arzusunda olduğunu xüsusi vurğulaması göstərir ki, ölkəmizin tutduğu yol düzgün yoldur, eyni zamanda, xarici siyasətinin prinsipləri beynəlxalq səviyyədə təqdir olunur. Azərbaycan xarici siyasətinin uğurları öz növbəsində yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yol açır. Münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi ABŞ-ın mövqeyi ölkəmiz üçün önəmlidir."

**Nilufər Mustafaqızı,**
***"İki sahil"***

## "SANTOS"un UĞURLU KƏŞFİ



Avstraliyanın nəhəng "Santos" neft və qaz şirkəti Avstraliyanın qərbindəki Bedout hövzəsində yerləşən "Dorado-2" qiymətləndirmə quyusunda möhtəşəm neft və qaz kəşfinə imza atıb.

"İki sahil" "offshore-mag.com" saytına istinadən xəbər verir ki, quyu "Dorado-1" kəşfinin 2 kilometrliyində qazılıb və ehtiyat quyunun 85 metr dərinliyində aşkar olunub . "Dorado -2" qiymətləndirmə quyusu "Caley" ərazisini hədəfə alıb .

Qeyd edək ki, quyunun qazılmasında "Noble Tom Prosser" özüqalxan qazma qurğusundan istifadə olunub. Şirkət ilkin tədqiqatlar zamanı quyudan neft və qaz ehtiyatının aşkar olunduğunu, növbəti tədqiqatlar zamanı quyuda karbohidrogen ehtiyatı da aşkar etdiyini bildirib.

"Santos" şirkətinin baş icraçı direktoru Kevin Gallagher bildirib ki, "Dorado" kəşfi düşünüldüyündən daha böyük ehtiyata malikdir və quyudan böyük nəticələr əldə edəcəyik.

## ŞİRKƏT MEKSİKA KÖRFƏZİNDƏ YENİ NEFT EHTİYATLARI AŞKAR EDİB



ABŞ-ın müstəqil "W&T Offshore" neft və qaz şirkəti Meksika körfəzinin dərin sularında yerləşən "Gladden Deep" ilk kəşfiyyat quyusunda neft kəşfinə imza atıb. Quyunun operatoru "W&T" şirkətidir və quyu "Monza JV" qazma proqramına daxil olan 14 quyudan biridir. Şirkət sözügedən kəşfdə 17.25% payın sahibidir.

"İki sahil" "oilfieldtechnology.com" saytına istinadən xəbər verir ki, "Gladden Deep" suyun 3000 fut dərinliyində yerləşir və 201 fut dərinliyində neft sütunları aşkar olunub.

"W&T" şirkətinin baş icraçı direktoru Trasi V.Krohn qeyd edib ki, biz əldə etdiyimiz kəşfdən çox məmnunuq və quyudan əldə olunan hasilat bu il ölkənin neft sahəsindəki inkişafına səbəb olacaq.

# Adını tariximizə yazmış ziyalı

**Tarix şəxsiyyətlər üzərində qurulur. Bu, tarixin danılmaz həqiqətlərindən biridir. Min illər keçsə də, tarix yaşayır və özü ilə birgə onu yaratmış, adını onun səhifələrinə pozulmaz hərflərlə yazmış insanları da yaşadır. Belə şəxsiyyətlər heç vaxt unudulmur, daim xatirələrdə yaşayır, xoş sözlərlə yad edilir, ruhuna rəhmətlər oxunur. Ona görə ki, onlar öz əməlləri ilə tarixdə qoyduğu izlərlə bərabər onları tanıyan insanların qəlbində, yaddaşında da silinməz xatirələr qoymuş olurlar.**



Mənim üçün belə insanlardan biri də yetkin həyatının bütün mərhələlərində həmişə diqqət və qayğısını hiss etdiyim, şəxsiyyətinə hörmət bəslədiyim, unudulmaz müəllimim, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, görkəmli türkoloq-alim, professor Afad Məhəmməd oğlu Qurbanovdur. O, yaşadığı dəyərli ömrün bütün çağlarında elmə, təhsilə, mədəniyyətə, mənəviyyata yüksək qiymət verən ziyalılarımızdan olmuşdur. Adi kənd müəllimliyindən universitet rektorluğuna qədər şərəfli pedaqoji yol keçmiş Afad Qurbanov həm də ictimai xadim kimi müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirak etmiş, hər zaman bir ziyalı kimi öz nüfuzlu sözünü demiş, Rusiya Türkiyə, Yunanıstan və bir sıra digər xarici ölkələrdə çıxışları zamanı xalqımızın milli mənəvi dəyərlərini ifadə etmiş, dövlətçiliyimizin mənafeyi keşiyində durmuşdur.

Afad Qurbanov bir filoloq kimi respublikamızın hüdudlarından çox-çox uzaqlarda tanınan alimlərimizdən idi. O, bir çox xarici dövlətlərin elmi qurumların üzvü idi. Qırx il əvvəl, onun əlli illiyi münasibətilə "İstedadla zəhmətin qüdrəti" adlı məqalə yazaraq o zamankı "Sovet Ermənistanı" qəzetində dərc etdirmişdim. Aradan qırx il keçəndən sonra bu böyük alimin bu müddətdə yazıb-yaratdıqlarını nəzərdən keçirdikdə, gördüyü böyük elmi-təşkilatçılıq işlərini yada saldıqda, yetişdirdiyi alimlərlə təmasda olduqda ürəyim fərəh, qürur hissi ilə dolur. Xatırlatdığım həmin məqalədə yazmışdım ki, Afad Qurbanov Azərbaycan dilinin vurğunudur. Afad müəllimin vaxtilə işlədiyi belə bir fikri yada salmaq yerinə düşər: "Azərbaycan dili öz mahiyyətinə görə indi SSRİ-nin ən zəngin milli dillərindən biri sayılır. Bu dilin özünəməxsus gözəlliyi və ahəngi vardır. Azərbaycan dili hər şeydən əvvəl xoş avaz yaradan səslər sisteminə, zəngin və rəngarəng söz ehtiyatına, tam sabitləşmiş qrammatik qurluşa malikdir".

Afad Qurbanovun şərəfli müəllimlik yolu 1956-ci ildən ömrünün sonuna kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. Maraqlıdır ki, Afad müəllimin taleyi müəllimlik peşəsinə hələ ali təhsil almamışdan əvvəl, cəmi 16 yaşı olarkən bağlanmışdı. 1944-cü ildə orta məktəbi bitirən Afad Qurbanov 1946-cı ildə bir il Qızıl Şəfəq kəndində müəllim işləmiş, yalnız bundan sonra Tbilisi Müəllimlər İnstitutunda ixtisas təhsili almış, 1948-1952-ci illərdə isə təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunda davam etdirmişdir. 1956-1959-cu illərdə bu institutun Azərbaycan dilçiliyi kafedrasının aspirantı olmuşdur. O, hələ aspiranturada oxuduğu dövrlərdə Bakı Ali Partiya məktəbində, Xarici Dillər İnstitutunda dərs demişdir.

1962-ci ildə müdafiə etdiyi "Səməd Vurğunun "Vaqif" pyesinin dili və üslubu" adlı namizədlik dissertasiyası ilə Afad Qurbanovun məhsuldar və elmi yaradıcılığı başlanır. 1968-ci ildə o, "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almış, 1969-cu ildə ADPU-nun professoru seçilmişdir.

Afad müəllimin ömür yolunu göz önünə gətirdikdə daim heyranlıq hissi keçirirəm. O, həyatının hər mərhələsində addım-addım yüksəkliklər fəth etmiş və sonda nail olduğu yüksək məqama yetişmişdir. O, institutu bitirəndə hamımızın ustadımız böyük Azərbaycan dilçisi, professor Əbdüləzəl Dəmirçizadə kafedra müdiri idi. Əzəl müəllim Afad Qurbanovun aspiranturada saxlanılması üçün institut rəhbərliyinə belə bir təqdimat yazmışdır: "Afad Qurbanov oxuduğu müddətdə istər yazmış olduğu kurs işlərində, istərsə tələbə elmi dərnəklərindəki çıxış və məruzələrində özünün dilçilik elminə həvəskar olduğunu göstərmişdir. O bu sahədə işləyərsə gələcəkdə yaxşı bir mütəxəssis ola biləcəyi ümidini verməkdədir"

Doğrudan da, uzaqgörən alim, müdrik insan Ə. Dəmirçizadənin bəslədiyi ümidlər tezliklə özünü doğrultdu. Elmi ictimaiyyətimiz, xalqımız Afad müəllimi görkəmli alim, dəyərli ziyalı kimi tanıyıb qəbul etdi. O, sözün həqiqi mənasında, pillə-pillə ucaldı. Ucaldıqca da ildən-ilə fəaliyyət dairəsini genişləndirdi. 1968-81- ci illərdə ADPU-nun filologiya fakültəsinin dekanı, 1981-89 -cu illərdə bu ali məktəbin rektoru vəzifələrində çalışdı. 1979-cu ildən ömrünün sonuna qədər Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik etdi. 1980-ci ildə "Respublikada elmin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki xidmətlərinə görə" "Əməkdar elm xadimi" fəxri adına layiq görüldü. 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1988-ci ildə Sovet Türkoloqları Komitəsinin sədr müavini, 1990-cı ildə Azərbaycan Respublikası Ali Sovetinin deputatı, 1998-ci ildə Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının akademiki seçildi. 1986-2009-cu illər ərzində Azərbaycan onomologiyasının öyrənilməsinə dair ön beş beynəlxalq elmi konfransın hazırlanması və keçirilməsi işlərinə rəhbərlik etdi. 1991-ci ildə "Azərbaycan dilinin onomologiyası" monoqrafiyasına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görüldü, Türkiyə Dil Qurumunun fəxri üzvü seçildi. 1994-cü ildə maarifçilik, elmi biliklərin təbliği sahəsindəki xidmətlərinə görə akademik Y. Məmmədəliyev adına medalla təltif edildi.

Bu müddət ərzində onun dilçiliyin müxtəlif sahələrinə dair 70- dən çox kitabı, 500-ə qədər elmi məqaləsi nəşr edilmişdir. Onun çoxsahəli elmi yaradıcılığını aşağıdakı bölgüdə vermək doğru olardı:

1. Ümumi və türkoloji dilçilik;
2. Müasir Azərbaycan ədəbi dili;
3. Onomologiya;
4. Bədii əsərlərin dili;
5. Ali məktəb pedaqogikası və metodikası

Afad Qurbanov Azərbaycanda ümumi dilçilik problemlərinə dair fundamental araşdırmalar aparan ilk alimlərdən biridir. Onun "Ümumi dilçilik" adlı ikicildlik dərsliyi bu sahənin mütəxəssisləri tərəfindən həm ölkəmizdə, həm də xaricdə yüksək qiymətləndirilmişdir. Bu dərsliyin əsas məziyyəti odur ki, ümumbəşəri məzmun daşımasına baxmayaraq, milli ruhda və milli təfəkkür tərzində yazılmışdır. Dərslikdə verilən bölgü və təsnifatlar yenidən işlənmiş, müxtəlif ümumi dilçilik problemlərinə və dünya dillərinin təsnifatına dair yeni fikirlər söylənmişdir. Xüsusən Altay dilləri ailəsi ilə bağlı fikirlər türkoloji dilçilikdə yeni və orijinaldır.

Bundan əlavə dilçilik elminin tarixi və dövrləşməsi də dərslikdə yeni forma və məzmunda verilmişdir. Dərsliyin ikinci cildində verilmiş fəsillər- "Dil və düsüncə", "Dil və kontakt", "Dil və nitq", "Dil və norma", "Dil və üslub", "Dil və dünya dili", "Dil tədqiqatının mərhələləri və metodları", "Transkripsiya və transliterasiya məsələləri" və s. bir çox məqamlarına görə problemin qoyuluşu və həlli cəhətdən Azərbaycan dilçiliyi üçün yenidir. Afad Qurbanovun 1994-cü ildə nəşr etdirdiyi "Dünyanın dil alətləri" kitabında da alimin ümumi dilçilik məsələlərinə dair baxışları öz əksini tapmışdır.

Afad Qurbanovun elmimizə gətirdiyi yeniliklərdən bəhs edərkən bir faktı da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan filologiyasında "Türkoloji dilçilik" terminini ilk dəfə o işlətmişdir. Yeri gəlmişkən, bu sahə alimin elmi tədqiqatlarının geniş bir istiqamətini təşkil edir.

Alim 1990-cı ildən etibarən dəfələrlə Türkiyə dövlətinə səfərlər etmiş, orada türk dünyasının dil problemlərini, vahid türk əlifbasına keçid məsələlərini, ortaq türk ədəbi dilini yaratmaq ideyasını müzakirə edən nüfuzlu elmi məclislərdə çıxışlar edərək öz mövqeyini bildirmiş, həmin problemlərə dair elmi fikir və qənaətlərin formalaşdırılmasında fəal iştirak etmişdir. Bundan başqa Afad Qurbanov türk tayfa və qəbilələrinin mənşəyi, dili, təşəkkül tarixi, onların yayılma və məskunlaşma mərhələləri kimi elmi cəhətdən böyük maraq doğuran problemləri də daim öz araşdırmalarının diqqət mərkəzində saxlamışdır. Bu tipli tədqiqatların bəhrəsi olaraq alimin "Türkoloji dilçilik" kitabı meydana gəlmişdir.

Bu kitabda dünya dilçilik elmində türkoloji dilçiliyin yeri və mövqeyi müəyyən edilmiş, dünya dilləri arasında türk dillərinin yeri məsələsinə xüsusi diqqət yetirilmiş, dilçilik tarixində türk dillərinə aid olan təsnifatların təhlili verilmiş, onlara tənqidi münasibətlərini bildirilərək türk dillərinin qruplaşdırılmasına dair yeni versiya irəli sürülmüşdür.

Afad Qurbanov özünün türkoloji tədqiqatlarında türk tayfa dillərinin xüsusiyyətlərini də nəzərdən keçirmiş, qədim türk yazılı abidələri, onların öyrənilməsi məsələlərinə də münasibət bildirmişdir. Kitabda alim müasir mərhələdə ümumtürk dünyası üçün aktual və zəruri olan ortaq ünsiyyət dili, ümumtürk dil mərkəzinin yaradılması ideyası, ümumtürk lüğəti problemi, ümumtürk əlifbası problemi, türk dillərinin qarşılıqlı təsiri və tədrisi kimi məsələlərə yüksək elmi səviyyədə münasibət bildirmişdir.

1989-cu ildən etibarən Qərbi Azərbaycandan - öz ata-baba torpaqlarından qovulmuş soydaşlarımızın yaşadıqları ərazilərlə bağlı problemlər Afad müəllimi həm ictimai xadim, həm də tədqiqatçı-alim kimi daim düşündürmüşdür. Bu da təsadüfi deyil. Çünki onun ömrünün gənclik illəri Qərbi Azərbaycanın Qızıl Şəfəq kəndi ilə bağlı olmuşdur. Gənclik dövründə topladığı materiallar əsasında Afaq Qurbanov 2007- ci ildə "Qərbi Azərbaycanın Cüci kəndi yazılı abidələrinin kəşfi" və "Qərbi Azərbaycanın Cüci kənd şivəsi" adlı kitablarını nəşr etdirmişdir.

Afad Qurbanovun elmi araşdırmalarının əsas istiqamətlərindən biri də müasir Azərbaycan ədəbi dilinin müxtəlif problemlərinin tədqiqi ilə bağlıdır. Bu sahə ilə bağlı olan tədqiqatlarını alim elmi yaradıcılığının ilk dövrlərindən başlamışdır. Onun bu istiqamətdə uzunmüddətli elmi araşdırmalarının məhsulu olaraq "Müasir Azərbaycan dilinin qrafika və orfoqrafiyası" (1963), "Azərbaycan dilinin frazeologiyası" (1963), "Azərbaycan dilinin lüğət tərkibi" (1964), "Azərbaycan ədəbi və danışıq dili" (1965), "Azərbaycan lüğətçiliyinə dair" (1967), "Müasir Azərbaycan ədəbi dili" (1967) kitabları meydana gəlmişdir. Bu sırada xüsusilə önəmli yer tutan fundamental "Müasir Azərbaycan ədəbi dili" kitabı sonralar daha da təkmilləşdirilərək 1985 və 2003-cü illərdə təkrar nəşr edilmişdir.

Afad Qurbanovun elmi yaradıcılığının ən geniş bölmələrindən biri də onomastika problemlərinin araşdırılmasıdır. Bu araşdırmalar XX əsrin ikinci yarısında Azərbaycan dilçiliyinin inkişafında xüsusi mərhələ təşkil edir. Bu dövrdə Azərbaycan onomologiyasının müstəqil nəzəri dilçilik sahəsi kimi formalaşıb inkişaf etməsi bilavasitə prof. Afad Qurbanovun elmi fəaliyyəti və təşkilatçılıq işinin nəticəsi ilə bağlıdır. Düzdür, onomastik vahidlərin tədqiqi ilə bağlı müəyyən araşdırmalar əvvəllər də aparılmışdı, ancaq bu sahəyə aid ardıcıl fundamental tədqiqatlar məhz Afad Qurbanovun yorulmaz fəaliyyəti sahəsində meydana gəlmişdir. 1986-cı ildən başlayaraq 2009-cu ilə qədər Azərbaycan Dövlət Pedaqoji Universitetində onomastika üzrə on beş elmi nəzəri konfrans keçirilmişdir. Bu konfranslar sovet dövründə ümumittifaq, müstəqillik dövründə isə beynəlxalq səciyyə daşımışdır. Hər konfransda respublikamızı və digər ölkələri təmsil edən türkoloq alimlərin yüzlərlə elmi məqaləsi müzakirə edilərək on beş topluda dərc edilmişdir. Bu konfranslar təkcə Azərbaycanda deyil, ümumən türkologiya elmində onomologiya bölməsinin inkişafına güclü təkan vermişdir. Prof. Afad Qurbanovun özünün bu sahəyə aid onlarla məqaləsi, çoxlu sayda kitabı işıq üzü görmüşdür. 1988- ci ildə alimin bu sahəyə dair araşdırmalarının ən böyük uğuru sayıla biləcək "Azərbaycan dilinin onomologiyası" monoqrafiyası nəşr edilmişdir. Bu əsərdə irəli sürülən elmi ideyalar öz əhəmiyyətini bu gündə saxlamaqdadır. Kitabda müəllif onomastik vahidlərin yaranması, dəyişməsi, poetik və üslubi xüsusiyyətləri, orfoqrafik və orfoepik problemlərinin nəzəri əsaslarını işləmişdir.

Akademik Məmmədağa Şirəliyev bu kitabın nəşrinə həsr olunmuş "Azərbaycan onomastik məktəbi və onun gələcəyi" adlı məqaləsində yazırdı: A. Qurbanovu "Azərbaycan dilinin onomologiyası" adlı əsəri təkcə bizim dilçiliyimiz üçün deyil, dünya türkoloji dilçiliyi üçün çox qiymətlidir".

Tam məsuliyyətlə deyə bilərik ki, Afad Qurbanov bu əsəri ilə Azərbaycan onomastika məktəbinin əsasını qoymuşdur.

Türkiyənin tanınmış dilçi alimi Xəlil Açıqgöz yazırdı: "Möhtərəm professor Afad Qurbanov illərdən bəri gözlədiyimiz türk onomastikasının nəzəri və əməli problemlərini böyük bir diqqətlə işləmişdir. Ona nə qədər təşəkkür etsək, azdır. Kitabın qısa zamanda türkiyə türkcəsi ilə nəşrini təmənna edirik. Əsər ölkəmizdə də nəşr edilərsə, türk onomastik araşdırmaları daha aydın işıqlandırılar".

Monoqrafiya ilə bağlı Almaniyanın Münhen şəhərindən azərbaycanlı ziyalı Yasin Aslan bütün dünyada yaşayan soydaşlarımızın ürək sözlərini ümumiləşdirilmiş şəkildə ifadə edərək yazırdı: "Bir azərbaycanlı olaraq Azərbaycan xalqına və elminə göstərdiyimiz xidmətlər üçün sizi təbrik edir, müvəffəqiyyətlərinizin davam etməsini arzu edirəm. Vətən sizin kimi övladları ilə fəxr etməlidir".

Müəllif bu əsəri daha da təkmilləşdirərək 2004-cü ildə iki cilddə təkrar nəşr etdirmişdir.

Prof. Afad Qurbanovun elmi tədqiqatlarının bir qolu da bədii əsərlərin dil və üslubunun öyrənilməsi ilə bağlıdır. O, elmi yaradıcılığının ilk dövrlərində Səməd Vurğun dramaturgiyasının dili üzərində işləmiş, namizədlik dissertasiyasını da bu mövzuya həsr etmişdir. Sonralar bu sahə ilə əlaqədar olaraq bədii mətnin linqivistik təhlilinə dair proqram hazırlamış və ilk dərslik yazılmışdır.

Afad Qurbanov elmi yaradıcılığının bir qolunu da ali məktəb pedaqogikası və metodikası məsələlərinin öyrənilməsi təşkil etmiş. Bir müddət orta məktəbdə, uzun illər isə ali məktəbdə pedaqoq kimi çalışması onun elmi yaradıcılığına ciddi təsir göstərmişdir. Afad Qurbanovun rus məktəblərinin X sinfi üçün "Azərbaycan dili" dərsliyi respublikamızın təhsil işçiləri tərəfindən rəğbətlə qarşılanmışdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru işlədiyi illərdə prof. Afad Qurbanov ölkəmizdə ali pedaqoji təhsilin inkişafına və yüksək ixtisaslı müəllim kadrlarının hazırlanmasına xüsusi diqqət yetirmişdir.

Prof. Afad Qurbanov dərin alim təfəkkürü ilə yanaşı zəngin yaradıcılıq potensialına və yüksək təşkilatçılıq qabiliyyətinə malik ziyalılarımızdan idi. O, həyatın bütün anlarını Azərbaycan dilçilik elminin inkişafına, dilimizin öyrənilməsinə və təbliğinə həsr etmişdi. 90 illik ömrünün 70 ildən çoxunu pedaqoji fəaliyyətə həsr etmiş Afad Qurbanov sözün əsl mənasında, böyük müəllim idi. Yüzlərlə müəllim, onlarla alim yetişdirmiş Afad müəllim öz yetirmələri ilə həmişə fəxr edirdi. Afad müəllim bu gün bizimlə olmasa da, biz daim onun adı ilə fəxr edirik. Biz yetirmələri və davamçıları bu dünyada yaşadıqca Afad müəllimin parlaq xatirəsi də bizim qəlbimizdə yaşayacaqdır!

✍ **Nizami Xudiyev,**
*ADPU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi*

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 6-9 saylı binaları üzrə 10 mənzil, həmçinin 10, 11, 12 və 13 saylı binalarında yerləşən 243 mənzilin, ümumilikdə 253 mənzilin yalnız **öz vəsaiti hesabına ödəniş üsulu ilə** satışı 12 iyul 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 17 iyul 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi 14 iyul 2019-cu il tarixində saat 11:00-da başlayacaq və 17 iyul 2019-cu il tarixi saat 00:00-dək davam edəcəkdir

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdir.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 253 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 27.12.2016-cı il tarixli 23089 nömrəli, 06.01.2017-ci il tarixli 23126 nömrəli, 30.01.2017-ci il tarixli 23206 nömrəli və 31.01.2017-ci il tarixli 23210 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 6 | 687,45 | 9 | 2 | 1 | 2 | 33,10 | 40,52 | "Hünər-İnşaat" / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63 | 1 sentyabr 2018-ci il |
| 7 | 665,36 | 9 | 2 | 2 | 1 | 54,98 | 66,92 | | |
| 8 | 645,25 | 9 | 2 | 2 | 3 | 52,27-55,02 | 62,66-66,91 | | |
| 9 | 441,56 | 12 | 1 | 1 | 2 | 31,53-32,88 | 40,12 | | |
| | | | | 3 | 2 | 69,80-70,09 | 84,47 | | |
| 10 | 441,56 | 12 | 1 | 1 | 11 | 31,52-33,08 | 40,12 | "Hovers Group" MMC / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 10 oktyabr 2018-ci il |
| | | | | 2 | 22 | 56,87-57,79 | 70,44 | | |
| | | | | 3 | 22 | 68,86-70,46 | 84,47 | | |
| 11 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 12 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "SMT İnşaat" MMC, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44 | 1 aprel 2019-cu il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 13 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı yalnız **öz vəsaiti hesabına ödəniş üsulu ilə** nəzərdə tutulduğuna görə mənzil əldə edən vətəndaş satış qiymətinə əlavə 10% endirim əldə edəcək. Mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Mənzilin öz vəsaiti hesabına ödəniş üsulu ilə (əlavə endirimdən sonra) satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 993 | **26 932** |
| 2 | 47 652 | 4 765 | **42 887** |
| 3 | 65 417 | 6 542 | **58 875** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər haqqında məlumatla tanış olmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış olmaq mümkündür.

***Qeyd: "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**LOT-1 TRZ və RVG qaz sayğaclarının müxtəlif ehtiyat hissələrinə və LOT-2 TRZ və RVG qaz sayğacları üçün müxtəlif yastıqlara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29019-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* - Müsabiqədə iştirak haqqında müraciət;
* - İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* - Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.06.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bütün lotlar üzrə bir əsli və iki surəti olmaqla 02.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər: Lot 1 üçün 472 AZN (ƏDV daxil) və LOT 2 üçün 236 AZN (ƏDV daxil),

və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi-AZN:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X
* Xaricdən və valyuta ilə edilən ödənişlər üçün hesab nömrələri:
TAX İD: 9900003871
- AZ08IBAZ38110019789306332120 (EURO)
Vasitəçi bank: Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
- AZ28IBAZ38110018409306332120 (USD)
Vasitəçi bank: Deutsche Bank Trust Company Americas, New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
- AZ23IBAZ38110018269306332120 (GBP)
Phone: (+99450) 493-68-23

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: (LOT-1 üzrə tətbiq edilir)***

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin hər iki lot üzrə 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-i.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:**
Fərhad Bədirbəyli, "Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521 00 00 (daxili 29-469)
farhad.bedirbeyli@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 02.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**reagentlərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17021-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 05 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 16 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 177 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department, SWIFT: İBAZAZ2X,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department, SWIFT: İBAZAZ2X
Nizami str., 67, Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar: tədbiq edilmir***

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 2 ay müddətinə yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu,
O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina

**Əlaqələndirici şəxs:**
Mustafayeva İlahə, Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17988
+994 12 521-23-51.
Ilaha.Mustafayeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 16 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 103 (7358) / Çərşənbə axşamı, 11 iyun 2019-cu il

## Bu günün havası



Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 20-23, gündüz 30-35, Bakıda gecə 21-23, gündüz 33-35 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 35-45 faiz olacaq.

Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu 21-22 dərəcə isti təşkil edəcək. Cənub çimərliklərində isə (Türkan, Hövsan, Sahil, Şıx) cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu 23-24 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-23, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 19-24 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza görə, iyunun 11-12-də meteoroloji amillərin normal sutkalıq gedişi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# YERƏ ASTEROİD DÜŞƏ BİLƏR

Futbol meydançası böyüklükdə asteroid Yerə düşə bilər.

Milli.Az xəbər verir ki, bu barədə "İnternational Business Times" məlumat yayıb.

Asteroidin planetimizlə təmas ehtimalı yeddi mində birə bərabər qiymətləndirilir.

2006 QV89-la toqquşma 9 sentyabr 2019-cu ilə təsadüf edə bilər. Asteroid Avropa Kosmik Agentliyinin, mütəxəssislərdə daha çox narahatlıq yaradan kosmik obyektlərin siyahısında dördüncü yerdə gəlir.

Modelləşdirmə nəticələrinə



əsasən, asteroid, böyük ehtimalla, Yerdən 6,7 milyon kilometrdən çox uzaqlıqdan keçəcək.

Bundan əvvəl aprelin 18-də Harvard Universitetinin alimləri 2014-cü ilin yanvar ayında Yer atmosferinə daxil olmuş kosmik obyektin Süd Yolu diskində yerləşən başqa planet sistemindən gəldiyini açıqlayıb.

Obyektin Günəş cazibəsi ilə heç bir əlaqəsi olmayıb, yəni onun orbiti ətrafında hərəkət etməyib, cazibə qüvvəsi asteroidin trayektoriyasına heç bir təsir göstərməyib.

## Dünyanın ilk sonsuzluq hovuzu



Londonda "Compass Pools" şirkəti tərəfindən 600 min litr həcmli 360 dərəcə mənzərəsi olan hovuzun yaradılması planlanır. 55 mərtəbəli beşulduzlu bir otelin üst mərtəbəsində yaradılması nəzərdə tutulan hovuz dünyanın ilk sonsuzluq hovuzu olacaq.

Milli.Az bildirir ki, bu barədə hovuzun dizayneri və texniki direktoru Aleks Kemsli deyib: "Biz bu bina üçün çox böyük texniki çətinliklərlə üzləşirik, lakin bununla bərabər bir ilki həyata keçiririk".

Qeyd edək ki, hovuzun tikintisinə 2020-ci ildə başlanılacaq.

## "Apple" iTunes-dən imtina edə bilər

"Apple" şirkəti tezliklə iTunes-dən imtina ilə bağlı informasiyanı elan etməlidir. Bu iyunun 3-ü, WWDC konfransının açılışı vaxtı baş tuta bilər. Şirkət konfrans çərçivəsində öz yeniliklərini elan edəcək.




Milli.Az bildirir ki, bu haqda "Bloomberg" öz mənbələrinə istinadən yazıb.

Güman edilir ki, kompaniya Music, TV və Podcasts-ı elan edəcək, bu isə mediapleyer iTunes-i əvəzləyəcək. Beləliklə, musiqi, podkasta qulaq asmaq, videoya baxmaq üçün ayrı əlavələr çıxacaq - Music, Podcasts və TV.

Demək olar 20 il idi ki, "Apple" məhsullarının sahibləri, onun vasitəsilə videoya baxır, musiqiyə və podkasta qulaq asırdılar. "Bloomberg" nəşri qeyd edir ki, indi onlar "Apple" qacetləri ilə Music app arasında gəzə bilirlər.

Qeyd edək ki, iTunes mediapleyeri 2001-ci ildə istifadəyə verilib. O "Apple" üçün xüsusi vizit kart rolunu oynayıb və iTunes bu gün dünyada ən geniş yayılan mediapleyerlərdən biridir. Xidmət, həmçinin ən iri media kontent mağazası iTunes Store-ya də çıxışı təmin edir.

**ELAN:**

***11 dekabr 1998-ci ildə Mətbuat və İnformasiya Nazirliyi tərəfindən "Qafqazın Stomatoloji Yenilikləri" elmi-praktik jurnalına verilən 64 №-li şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

## DE LİQT: Ronaldu matçdan sonra mənə "Yuventus"a gəlməyimi söylədi

UEFA Millətlər Liqasının Portuqaliya ilə keçirilən final matçından (0:1) sonra Hollandiya yığmasının futbolçusu Matteys De Liqt maraqlı açıqlama verib.

Milli.Az xəbər verir ki, "Ayaks"ın kapitanı oyundan sonra Kriştianu Ronaldunun onun "Yuventus"a gəlməyini istədiyini bildirib: "Kriştianu Ronaldu matçdan sonra mənə "Yuventus"a gəlməyimi söylədi. Şok oldum. Güldüm və bir söz deyə bilmədim. Transferimlə bağlı hələ dəqiqləşən bir şey yoxdu. Bir müddət bunu düşünməyəcəyəm. Tətilə gedirəm. İstirahətdən sonra qərar verəcəyəm. Çox uzun mövsümü və yorulmuşam".

Qeyd edək ki, "Ayaks"la uğurlu mövsüm keçirən De Liqt Avropanın nəhəng klublarının hədəfindədir.



**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Hacıqabul Magistral Qaz Kəmərləri sahəsinin Baş mühəndisi Əli Qarayevə, əzizi

**Arzu xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi "SOCAR Upstream" MMC-nin direktoru Şaiq Bəkirova, qardaşı

**Sahib Bəkirovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 11.06.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8215**
*İndeks:* **0151**, *Sifariş:* **1938**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.